Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

21 AVQUST 2019-cu il

№ 145 (4043)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİSTANDA VƏZİYYƏT QARIŞIR - «PAŞINYANIN QORXULU YUXULARI BAŞLAYIB»

■ səh. 7 ■

Azərbaycanın Ermənistan üzərində üstünlüyü yeni formalar alır ■ səh. 6 ■

ABŞ jurnalı Gəncə hadisələrinin arxasında dünya radikal islamçılarının dayandığını öncədən demişdi... ■ səh. 3 ■

Nəqliyyat dəhlizləri hesabına Azərbaycanın geosiyasi mövqeləri güclənir ■ səh. 10 ■

Bakının kənd-qəsəbə yollarını Prezident proqrama saldı, ancaq məmurlar unudub... ■ səh. 12 ■

Bakı Şəhər Baş Polis İdarəsi ictimaiyyətin gözlədiyi daha bir addımı atdı ■ səh. 4 ■

Bakıda iki məktəbin bütün məzunları universitetə qəbul olundu ■ səh. 14 ■

Azərbaycanda intiharları siyasiləşdirmək istəyənlərin niyyəti bəllidir ■ səh. 13 ■

Azərbaycanlı qızları açıq fahişəliyə çağıran sosial şəbəkə istifadəçilərinin sayı çoxalır ■ səh. 15 ■




■ səh. 8-9 ■

## Şəbəkə radikalları - Əli Kərimli - Mübariz Mənsimov üçbucağında «yeni İbrahimbəyov» doğuluşu...

*Mənsimovun radikal islamçılarla eyni vaxtda fəallaşması...*



Azərbaycan - Gürcüstan sərhədləri ilə bağlı son razılaşma və Keşikçidağ kompleksində mübahisənin taleyi... ■ səh. 3 ■



Gürcüstanda azərbaycanlılara sərinləşən münasibətin kökü - «ilmə» ermənilərdən gəlir... ■ səh. 9 ■

«Relaks» sübut etdi - nə qədər ki, iri biznesin arxasında məmur, deputat əli var... ■ səh. 4 ■

■ səh. 2 ■ Nazir Vilayət Eyvazov Beynəlxalq... komitə nümayəndəsinə maraqlı və düşündürücü islahat faktları təqdim etdi



■ səh. 5 ■ Radikal müxalifətin sosial şəbəkələrdə Gəncə terrorçularına təəssübkeş münasibətinin kökü...



■ səh. 5 ■ Erməni xalqı Paşinyanı "Amulsar tupikinə" sıxdı...



■ səh. 12 ■ Aqrar Sığorta Fondu kənd təsərrüfatımızın hansı problemlərini sığortalayacaq...



■ səh. 13 ■ Azərbaycan haqda beynəlxalq təşkilatın qəribə rəyi - müsəlman ölkəsində zəif islam bankçılığı...





## Bakı-Naxçıvan-Bakı marşrutu ilə sərhədkeçmə prosesi asanlaşdı - Gömrük nəzarəti tətbiq edilməyəcək

**Artıq gömrük-keçid məntəqələrində Bakı şəhərindən İran İslam Respublikasının ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikasına və əks istiqamətdə səyahət edən sərnişinlərin əl yükləri və baqajlarına gömrük nəzarəti tətbiq edilməyəcək.**

Dövlət Gömrük Komitəsindən baki-xeber.com-a bildirilib ki, sərnişinlərin rahatlığının təmin edilməsi, sərhədkeçmə prosesinin sürətləndirilməsi və avtobusların mənzil başına daha tez çatmasını təmin etmək məqsədilə gömrük nəzarəti Dövlət Gömrük Komitəsi sədrinin sərəncamına əsasən, avqustun 19-dan etibarən Bakı Beynəlxalq Avtovağzalında yaradılan gömrük nəzarəti zonasında həyata keçiriləcək. Bu məqsədlə, Dövlət Gömrük Komitəsi tərəfindən həyata keçirilən pilot layihə çərçivəsində, Bakı Beynəlxalq Avtovağzalında gömrük nəzarətinin tətbiqi üçün zəruri avadanlıqlar quraşdırılıb və layihənin icrasına ixtisaslı gömrük əməkdaşları cəlb edilib.

Əvvəllər sərhədi keçən avtobuslar hər iki ölkənin gömrük postlarında ümumilikdə 4 dəfə gömrük nəzarətindən keçir və sərnişinlərin əl yükləri dəfələrlə yoxlanılırdı. Bu da vaxt itkisi ilə yanaşı, sərnişinlər üçün diskomfort vəziyyət yaradırdı. Son bir il ərzində İran İslam Respublikasının gömrük xidmətinin sədri ilə Bakıda və Naxçıvanda keçirilən ikitərəfli görüşlərdə Dövlət Gömrük Komitəsinin sədri. Gömrük xidməti general-leytenantı Səfər Mehdiyev tərəfindən bu məsələnin həlli istiqamətində dəfələrlə müvafiq təkliflər irəli sürülüb. Eyni zamanda, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yanında Dövlət Avtomobil Nəqliyyatı Xidməti tərəfindən İran İslam Respublikasının müvafiq qurumları qarşısında məsələ qaldırılıb.

Aparılan danışıqların və görülən tədbirlərin nəticəsi olaraq, 13 iyun 2019-cu ildə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında beynəlxalq avtomobil əlaqələri sahəsində birgə komissiyanın növbəti iclasında Bakı-Naxçıvan-Bakı marşrut xətti üzrə hərəkətdə olan avtobuslardakı əl yüklərinin sərhəd-keçid məntəqələrində yoxlanma prosedurlarına dəyişikliyə dair razılıq əldə olunub.

Yeni qaydalara əsasən, Azərbaycan tərəfində gömrük nəzarətindən keçirilən avtobuslar və sərnişinlərə aid yüklər xüsusi nömrələr və plomblarla təmin olunduqdan sonra İran ərazisinə daxil olur. İki ölkənin gömrük orqanları arasında imzalanan memoranduma əsasən, Azərbaycan qarşı tərəfə avtobusların yük yerlərində qaçaqmal faktı təşkil edən və İran ərazisində dövriyyəsi qadağan edilən malların olmadığına dair təminat verir və avtobuslar İran İslam Respublikasında gömrük yoxlamasından keçirilmir. Bununla da İran ərazisinə daxil olan avtobusun heç bir əlavə yoxlama aparılmadan sürətli şəkildə gömrük postlarından keçidi təmin olunur.

Pilot layihə Naxçıvandan Bakıya gələn avtobuslarda əhatə edir. Belə ki, əks istiqamətdə hərəkət edən avtobuslar və sərnişinlərə dair əl yüklərinin, baqajların gömrük nəzarətindən keçirilməsi məqsədilə Naxçıvan şəhərindəki Avtovağzal Kompleksində də gömrük nəzarəti zonası yaradılıb.

Dövlət Gömrük Komitəsi hazırda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidməti ilə birlikdə bu layihənin Türkiyə, Gürcüstan və Rusiyaya gedən avtobuslara tətbiq edilməsi üzərində iş aparır.

# Azərbaycanda qəzaya uğrayan MiQ-29 təyyarəsinin pilotunun nəşi dənizdən çıxarıldı

### *Müdafiə Nazirliyi qəzaya uğrayan təyyarənin axtarış əməliyyatlarında iştirak edənlərə təşəkkürünü bildirib*

**Azərbaycan Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin pilotunun nəşi dənizdən çıxarılıb. Baki-xeber.com xəbər verir ki, bu barədə Müdafiə Nazirliyindən bildirilib.**

Nazirliyin məlumatında deyilir ki, iyulun 24-də plana uyğun olaraq gecə vaxtı təlim-məşq uçuşları keçirən zaman qəzaya uğrayan Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin pilotu polkovnik-leytenant Atakişiyev Rəşad Saləddin oğlunun nəşi və təyyarənin qalıqları tapılaraq dənizdən çıxarılıb.



Müdafiə Nazirliyinin rəhbərliyi Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin qəzaya uğradığı ilk gündən pilotun nəşi və təyyarənin qalıqlarının axtarışlarında fəal iştirak edən aidiyyəti qurumların nümayəndələrinə təşəkkürünü bildirib.

Qeyd edək ki, axtarış əməliyyatlarına Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri ilə birgə Türkiyə Respublikası Hərbi Dəniz Qüvvələrinin xilasetmə qrupunun üzvləri, Fövqəladə Hallar Nazirliyinin Dövlət Sularda Xilasetmə Xidmətinin dalğıcları və katerləri, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin "Vaqif Cəfərov" kran, "Nefteqaz-58" təchizat-yedək, "Məmməd Süleymanov" elmi-tədqiqat gəmilərinin heyətləri və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin dalğıcları cəlb olunmuşdu.

Avqustun 21-də saat 10.00-da Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzində hərbi pilotla vida mərasimi keçiriləcək.

Hazırda hərbi pilotun dəfninin təşkili ilə bağlı müvafiq tədbirlər həyata keçirilir.

# Nazir Vilayət Eyvazov Beynəlxalq... komitə nümayəndəsinə maraqlı və düşündürücü islahat faktları təqdim etdi

**Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin məlumatına görə, daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov avqustun 20-də Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycan nümayəndəliyinin rəhbəri xanım Elena Aymone Sesserani qəbul edib.**



Qonaqları salamlayan nazir daxili işlər orqanları ilə Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında əməkdaşlığın razılaşdırılmış Tədbirlər Planı və Azərbaycan Respublikası Prezidentinin 2 iyun 2000-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş Sazişə əsaslandığını xatırladaraq mövcud əlaqələrin inkişafını yüksək qiymətləndirib.

Cənab Vilayət Eyvazov qeyd edib ki, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, qanunçuluğun möhkəmləndirilməsi, ona riayət olunması ölkəmizdə və o cümlədən DİN-də aparılan davamlı islahatların prioritet istiqamətlərindən olmaqla, bu sahədə bir sıra əməli tədbirlər həyata keçirilib. Belə ki, qəbul olunmuş yeni normativ sənədlərdə saxlanılan şəxslərin hüquqlarının müdafiəsi, hüquqi yardımdan istifadə edilməsi, şikayət və təkliflərin yuxarı instansiyalara verilməsi, habelə hüquq-müdafiə təşkilatlarının nümayəndələri və müstəqil ekspertlərlə maneəsiz görüşmək qaydaları və imkanları öz əksini tapır. Eyni zamanda, saxlama yerlərinin fəaliyyətinin beynəlxalq normalara uyğun təkmilləşdirilməsi, saxlanılan şəxslərin hüquqlarının qorunması, onların saxlanma şəraitinin yaxşılaşdırılması istiqamətində konkret tədbirlər həyata keçirilib. Qeyd olunub ki, DİN-in orqan və hissələrində fəaliyyət göstərən müvəqqəti saxlama təcridxanalarının, demək olar ki, hamısında mövcud təlimatın tələblərinə və müasir standartlara uyğun əsaslı təmir işləri aparılıb, hamısı videonəzarət və təhlükəsizlik avadanlıqları ilə təmin olunub.

General-polkovnik Vilayət Eyvazov deyib ki, Beynəlxalq Qırmızı Xaç Komitəsinin ölkəmizdəki nümayəndəliyinin xətti ilə 2003-cü ildən etibarən polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları üçün müxtəlif mövzular üzrə seminar və təlimlər keçirilmiş, bu təlimlərdə 700-dən artıq əməkdaş iştirak edib. O da qeyd olunub ki, korrupsiya hüquqpozmalarına şərait yaradan halların aradan qaldırılması, o cümlədən məmur-vətəndaş münasibətlərinin minimuma endirilməsi məqsədi ilə Daxili İşlər Nazirliyi tərəfindən vətəndaşlara 28 istiqamət üzrə elektron xidmət göstərilir.

Səmimi qəbula və ətraflı məlumata görə nazir V.Eyvazova minnətdarlığını bildirən xanım Elena Aymone Sessera rəhbərlik etdiyi qurumun azadlıqdan məhrum etmə yerlərində apardığı işlər, keçirilən təlim kursları, eləcə də ölkəmizdə görəcəyi işlər barədə məlumat verib, Daxili İşlər Nazirliyi ilə əməkdaşlığın daha da genişlənməsində maraqlı olduqlarını qeyd edib.

# Rusiyadan 1,7 mln. rubldan çox vəsait çıxarmağa cəhd edən azərbaycanlı Koltsovo hava limanında tutuldu

**Rusiya gömrükçüləri 1,7 mln. rubldan ($25,4 min - İF) çox nağd vəsaitin Azərbaycana qanunsuz yolla gətirilməsinin qarşısını alıb. Baki-xeber.com xəbər verir ki, bu barədə Ural Gömrük İdarəsinin mətbuat xidməti məlumat yayıb.**

"Koltsovo hava limanında Yekaterinburq-Bakı reysinin sərnişini çemodanda 1,7 mln. rubldan çox pul vəsaitini keçirməyə cəhd edib. O, gömrük əməkdaşlarına pulun məbləğinin bəyan edilməsinin vacib olduğunu bilmədiyini deyib", - deyə məlumatda qeyd olunur. Sərnişinin 10 min dolları qaytarılıb, qalan pul isə müsadirə edilib. Bu şəxsə qarşı inzibati iş başlanıb. O, müsadirə edilmiş məbləğin 50%-dən 2 mislinə qədər cərimələnə bilər. "Qanuna əsasən, 10 min dollardan çox məbləğ keçirmək istəyərkən "qırmızı dəhliz"ə getmək lazımdır. Nağd pulun bəyannamədə qeyd edilməsinə görə heç bir rüsum yoxdur. Sadəcə, böyük məbləğdə vəsaitin ölkədən çıxarılması barədə məlumat vermək vacibdir", - deyə Koltsovo hava limanının gömrük postunun rəis müavini Sergey Borovik bildirib.

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov ötən il Gəncədə baş vermiş terror aktlarının ildönümü ilə bağlı KİV-ə xüsusi açıqlama verib. Həmin açıqlamada diqqətçəkən bir çox vacib məqama toxunulub.

# ABŞ jurnalı Gəncə hadisələrinin arxasında dünya radikal islamçılarının dayandığını öncədən demişdi...



## *Yeganə Hacıyeva: "Azərbaycan dövlətinin sayıqlığı nəticəsində radikal dini dairələrin planlaşdırdığı böyük bir layihənin tam həyata keçirilməsi mümkün olmadı"*

Dövlət rəsmisinin açıqlamasında vurğulanır ki, Gəncədə baş verəcək hadisə ilə bağlı ABŞ-ın nüfuzlu nəşri məlumat verib: "Xatırladım ki, bu teraktdan bir ay əvvəl, 2018-ci il mayın 28-də ABŞ-ın nüfuzlu "Foreign Policy" nəşri "Gəncə keçidi"nin Qərb üçün əhəmiyyəti haqqında yazı dərc edərək, baş verəcək təxribatlar haqqında xəbərdarlıq edirdi. Bu gün terroru təbliğ edən radikalların və onların havadarlarının yenidən fəallaşması, Azərbaycana təhdidlər ünvanlamaları isə Gəncə hadisələrinin ildönümü ilə yanaşı, TANAP-ın istifadəyə veriləcəyi vaxta təsadüf edir. Qəribə deyil ki, Azərbaycan dövləti və onun müstəqil siyasətinin əleyhinə son dövrlərdə Ermənistan, bəzi dövlətlərdəki klerikal dairələr, ekstremistlər, xarici ölkələrə qaçmış, sadəcə, pula və məişət rahatlığının təminatına can atan bəzi azərbaycanlılar tərəfindən aparılan təmərküzləşmiş, təhlükəli ideoloji təxribat bu günlərdə yenidən canlanıb".

Göründüyü kimi, ABŞ nəşrinin irəli sürdüyü versiya tam özünü doğrultmuş olub. Təbii ki, KİV-ə bu məlumat çox ciddi mənbələrdən sızdırıla bilərdi. ABŞ xüsusi xidmət orqanları radikal dini qruplarla bağlı ciddi iş aparırlar. Bu heç kim üçün sirr deyil. Böyük ehtimalla, Gəncə ilə bağlı məlumat da həmin mənbələr üzərində aparılan əməliyyat tədbirləri zamanı əldə edilib. Bütün bunlar onu deməyə əsas verir ki, Gəncədəki hadisənin arxasında doğrudan da radikal dini dairələr dayanıb.

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Gəncə hadisələri ilə bağlı manipulyasiyalara çox rast gəlinir: "Həmin hadisələrin mahiyyəti, inkişaf dinamikasına baxmaq kifayət edir ki, aydın təsəvvür formalaşsın. Cinayəti törədən şəxsin kimliyi, keçdiyi həyat yolu da çox mətləblərdən xəbər verir. Hadisələri icra başçısının əhali ilə sərt davranması ilə bağlamağa çalışsalar da, bu o qədər də inandırıcı görünmür. İcra başçısına güllə atan Yunus Səfərov Azərbaycan ərazisindən kənarda olan silahlı qruplaşmaların tərkibində fəaliyyət göstərib. Xarici ölkələrdən birində dini təsil alıb. Yəni personanın seçilməsi də təsadüfi deyil. Hadisə və sonrakı yaşananlar sübut etdi ki, bu, radikal dini dairələrin təşkil etdiyi aksiya olub. Hörmətli Əli Həsənovun açıqlamasında qeyd olunan məqamlar çox düşündürücüdür. ABŞ mətbuatının məhz Gəncə ilə bağlı əvvəldən həyəcan təbili çalması onu deməyə əsas verir ki, həmin istiqamətdə işlər aparılırmış. Bilirsiniz ki, ABŞ terrorla ciddi mübarizə aparan ölkələrdəndir. Həmin supergücün informasiya əldə etmək üçün ciddi maliyyəsi və imkanları var. Təbii ki, məqaləni yazan jurnalist belə müfəssəl və dəqiq məlumata malik ola bilməzdi. Burada xüsusi xidmət orqanlarının dəst-xətti sezilir. Yəni bu cür səhih məlumatı ancaq onlar sızdıra bilərdi. Çox təəssüflər olsun ki, bizim bəzi radikal dairələr də Gəncə hadisələri ilə bağlı fərqli davranış ortaya qoydular. Bir növ, həmin hadisələri dəstəkləyirlər. Azərbaycan dövlətinin sayıqlığı nəticəsində radikal dini dairələrin planlaşdırdığı böyük bir layihənin tam həyata keçirilməsi mümkün olmadı. Həmin hadisələrə başqa don geydirmək yersizdir".

*Məhəmmədəli*
**QƏRİBLİ**

Avqustun 19-da Gürcüstan və Azərbaycan Respublikasının dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə dövlət komissiyalarının ekspertlərinin işçi görüşü keçirilib. XİN-dən verilən məlumata görə, tərəflər delimitasiya prosesinin gedişatını muzakirə edib və razılaşdırılmamış sahələrlə bağlı öz mövqelərini ifadə ediblər.

# Azərbaycan - Gürcüstan sərhədləri ilə bağlı son razılaşma və Keşikçidağ kompleksində mübahisənin taleyi...



## *Elşən Həsənov: "Sərhədlərin tam delimitasiya və demarkasiya olunmasından sonra Keşikçidağla bağlı narahatlıq da öz həllini tapmış olacaq"*

Görüləcək sahə işləri, razılaşdırılmamış sahələrdə birgə ölçmə işlərinin aparılması və həmin yerlərə baxış keçirilməsi planlaşdırılıb.

19-23 avqust tarixlərində ekspertlər ayrı-ayrı sahələrə birgə baxış keçirəcəklər və gələcək mərhələdə qalan digər razılaşdırılmamış sahələrə də baxış keçirməyi planlaşdıracaqlar. Məlumdur ki, Gürcüstanla Azərbaycan arasında strateji müttəfiqlik münasibətləri mövcuddur. Buna baxmayaraq, bəzi dairələr müxtəlif bəhanələrlə bu rəvan münasibətləri pozmaq istəyirlər. Xüsusilə də sərhəd mövzusunda belə cəhdlərə daha çox rast gəlindi. "David Qareci" adlandırılan məbədlə bağlı yaranan kiçik insident və ondan qaynaqlanan reaksiyalarda bunu aydın görmək mümkün idi. Bu baxımdan da sərhədlərin tam dəqiq müəyyənləşməsi istiqamətində görülən tədbirlərin Keşikçidağ məsələsinin tam həllinə nə kimi təsiri ola bilər?

Ekspert Elşən Həsənov "Bakı-Xəbər"ə bildirdi ki, bəzi anlaşılmazlıqların ortaya çıxmasının kökündə Gürcüstan və Azərbaycan arasında sərhədlərin delimitasiya və demarkasiyasının başa çatmaması dayanır: "Təxminən 20 il əvvəl delimitasiya və demarkasiya prosesinə başlanıb və sərhədlərin böyük bir hissəsi müəyyən edilib. Ancaq sərhədin az bir hissəsində delimitasiya və demarkasiya başa çatmayıb, o cümlədən, Azərbaycan tərəfinin Keşikçidağ, Gürcüstan tərəfinin "David Qareci" adlandırdığı məbədin yerləşdiyi ərazidə. Gürcüstan və Azərbaycan dost, qardaş ölkə, həmçinin, strateji müttəfiq dövlətlərdir. Biz şahidi olduq ki, sosial şəbəkələrdə siyasətdən uzaq diletant şəxslər, hər iki tərəfdən gənclər qısa müddətdə böyük kampaniyaya başladılar. Qarşılıqlı hücumlar, ittihamlar və s. Fikrimcə, bunun özü bizə təsəvvür etməyə imkan verir ki, bu amildən hər iki ölkənin düşmənləri necə istifadə edə bilər. Azərbaycan və Gürcüstanın yaxın əlaqələrini hər vasitə ilə pozmağa çalışan müəyyən xarici qüvvələr, ölkələr var. Bunu nəzərə almaq lazımdır. Əlbəttə, məsələ həssas məsələdir. Gürcüstan və Azərbaycan tərəfinin özünün dəlilləri var. Gürcüstan tərəfi onu qədim gürcü məbədi hesab edir, Azərbaycan tərəfi isə alban məbədi adlandırır. Bu cür məsələlərdə emosiyalara qapılmaq olmaz. Hər iki tərəf problemin həlli üçün öz iradəsini ortaya qoyub. Gürcüstan tərəfi ilə yanaşı, Azərbaycan Xarici İşlər Nazirliyi də Azərbaycanın delimitasiya və demarkasiya prosesini başa çatdırmaqda maraqlı olduğunu ifadə edib. Belə şəraitdə ancaq danışıqlar, dialoq yolu və komissiyanın işi ilə məsələni həll etmək lazımdır. Bu baxımdan da əldə olunan nəticələri qənaətbəxş saymaq olar. Hesab edirəm ki, sərhədlərin tam delimitasiya və demarkasiya olunmasından sonra Keşikçidağla bağlı narahatlıq da öz həllini tapmış olacaq".

*Məhəmmədəli*
**QƏRİBLİ**

# "Relaks" sübut etdi - nə qədər ki, iri biznesin arxasında məmur, deputat əli var...

**Lerikdəki "Relaks" istirahət mərkəzində baş verən insidentlə bağlı məlumatlar ətrafında müzakirələr davam etməkdədir. Üç dövlət qurumunun yaydığı məlumatdan sonra məlum oldu ki, həmin obyektdə baş verən hadisəyə görə millət vəkili İqbal Məmmədovun oğlu və yaxın qohumları həbs edilib.**




Uzun müddətdir mediada "Relaks"ın məhz İqbal Məmmədova məxsus olması ilə bağlı xəbərlər dolaşırdı. Düzdür, İqbal Məmmədov verdiyi müsahibədə "obyektin" ona aid olmadığını desə də, hadisələrə bildirdiyi münasibətdə "Relaks"a birbaşa və ya dolayısı ilə aidiyyəti olduğunu təsdiqləyib.

Yayılan rəsmi məlumatda olan bir məqam xüsusilə diqqəti cəlb edir. Azərbaycan Respublikasının Vergilər, Daxili İşlər nazirlikləri və Baş Prokurorluğun mətbuat xidmətlərinin yaydığı birgə məlumatda qeyd edilir ki, son dövrlər vergi yoxlamalarının ümumi sayının azalmasına baxmayaraq, Vergilər Nazirliyi vergidən yayınma ehtimalı yüksək olan hallarda vergi nəzarəti tədbirləri həyata keçirir: "Növbəti belə tədbirin Lerik rayonunda fəaliyyət göstərən "Relaks" istirahət və turizm mərkəzində cari il avqustun 16-da keçirilməsi planlaşdırılıb. Nəzarət tədbirinin həyata keçirilməsinə istirahət mərkəzindən dövlət büdcəsinə ödənilən vergilərin kəskin şəkildə azalması səbəb olub. Belə ki, faktiki sahəsi 14 hektardan çox olan və qonaqların qalması üçün 142 nömrədən ibarət istirahət mərkəzində müxtəlif təyinatlı 20 obyektin fəaliyyət göstərməsinə baxmayaraq, 2018-ci ildə cəmi 10 min 726 manat, 2019-cu ilin ötən dövrü ərzində isə 972 manat məbləğində vergi ödənilib. Bundan başqa, "Relaks" istirahət mərkəzi vahid idarəetmə sisteminə malik olmasına baxmayaraq, vergidən yayınma məqsədilə buradakı obyektlər ayrı-ayrı vergi ödəyicilərinin adına rəsmiləşdirilmiş, bir sıra obyektlər vergi orqanında uçota alınmadan fəaliyyət göstəriblər.

İstirahət mərkəzində fəaliyyət göstərən vergi ödəyicilərinə vergi qanunvericiliyinin tələblərinə əməl olunmasının zəruriliyi, mövcud çatışmazlıqların və vergidən yayınma hallarının aradan qaldırılması haqqında dəfələrlə xəbərdarlıq edilsə də, buna məhəl qoyulmayıb.

Bu səbəbdən real vergi potensialının müəyyən edilməsi məqsədilə Vergilər Nazirliyinin 6 saylı Ərazi Vergilər İdarəsi tərəfindən istirahət mərkəzində fəaliyyət göstərən vergi ödəyicilərinə məxsus obyektlərdə xronometraj və digər operativ vergi nəzarəti tədbirlərinin həyata keçirilməsi barədə qərar qəbul edilib".

Yayılan rəsmi məlumatdan bəlli olur ki, ötən il ərzində "Relaks" dövlət büdcəsinə cəmi 10 min 726 manat vergi ödəyib. Bu rəqəmin özü sözügedən qurumda vergidən yayınmanın olduğu barədə ilkin və aydın təsəvvür yaratmış olur. Necə ola bilir ki, sahəsi 14 hektardan çox olan və qonaqların qalması üçün 142 nömrədən ibarət istirahət mərkəzində müxtəlif təyinatlı 20 obyektin fəaliyyət göstərməsinin müqabilində istirahət mərkəzi bir il üçün cəmi 10 min manat vergi ödəyib? Bizim söhbət etdiyimiz peşəkar iqtisadçılar bildirirlər ki, belə halın olması mümkün deyil. Onların sözlərinə görə, istirahət mərkəzi kifayət qədər geniş ərazini əhatə edirsə, orada xidməti personalın da sayı kifayət qədərdir. 100-lərlə işçisi olan bir istirahət mərkəzinin əməkhaqqından vergi tutulmaları elə həmin məbləğ qədər ola bilər. Onda belə çıxır ki, istirahət mərkəzi ziyanla işləyib? Belədirsə, niyə fəaliyyətlərini davam etdiriblər? "Beş ulduz" mərkəz kimi fəaliyyət göstərən "Relaks"dakı qiymətlərdən hamı xəbərdardır. İl ərzində isə orada boş yer tapmaq müşkül məsələdir. Deməli, qazanc var, özü də necə lazımdır. Sadəcə, "obyektin" bölgənin deputatı olan İqbal Məmmədova birbaşa, yenə sənədlə aidiyyəti olmasa da, dolayısı ilə aidiyyətinin olması belə vəziyyəti yaratmış olub. Məhz bu amil, yəni arxayınçılıq və qanunları pozmağın fonunda cəzasız qala bilmək arxayınçılığı həmin qurumda çalışanları vergidən yayınmaya vadar edib. Hadisədən yayılan videodan aydın görünür ki, işçilərə vergi işçilərinin orada yoxlama aparmaq istəyi çox qəribə gəlir.

Sanki onların "obyekt"inə kimlərinsə basqın etdiyi təəssüratı yaranmış olur. Buna görə də vergi işçilərinin üstünə hücum çəkirlər. Ancaq kimliyindən asılı olmayaraq, hər kəs bilməlidir ki, vergi ödənişləri əsasında bizim dövlət büdcəmiz formalaşır.

**Vergidən yayınmaq dövləti aldatmaq anlamına gəlir. Təəssüflər olsun ki, əksər hallarda məmur və deputatların nəzarəti altında olan obyektlərdə məqsədli şəkildə vergidən yayınma cəhdlərinə rast gəlinir. Bunun da ən böyük ziyanı Azərbaycan dövlətinə və onun vətəndaşına dəymiş olur.**

*Məhəmmədəli QƏRİBLİ*

# Bakı Şəhər Baş Polis İdarəsi ictimaiyyətin gözlədiyi daha bir addımı atdı

**Bakı Şəhər Baş Polis İdarəsinin (BŞBPİ) "Facebook" səhifəsi fəaliyyətə başlayıb. Səhifənin yaradılmasında məqsəd BŞBPİ-nin, eləcə də tabeli polis orqanlarının fəaliyyətinə dair məlumatların operativ şəkildə əhaliyə, o cümlədən, kütləvi informasiya vasitələrinə çatdırılmasını, həmçinin, ictimaiyyəti maraqlandıran suallara, problemlərə və təkliflərə çevik reaksiya göstərilməsini təmin etməkdir.**






Səhifənin yaradılması ilə paytaxt polisinin fəaliyyətinə dair informasiya təminatı sahəsində boşluqların aradan qaldırılması, polislə cəmiyyət arasında birbaşa əlaqə qurulması, eyni zamanda, paytaxt polisinin fəaliyyətinə dair əhalinin gerçək rəy və münasibətlərinin öyrənilərək problemlərin həlli üçün aidiyyəti strukturlara çevik yönləndirmənin təmin edilməsi nəzərdə tutulur.

Səhifənin yaradılması ilə bağlı BŞBPİ-nin Mətbuat Xidmətinin rəisi, polis mayoru Elşad Hacıyevlə əlaqə saxladıq. O, "Bakı-Xəbər"ə açıqlamasında sözügedən səhifənin avqustun 19-dan fəaliyyət göstərdiyini bildirdi: "Facebook" səhifəsinin yaradılmasında əsas məqsəd polis-vətəndaş münasibətlərinin möhkəmlənməsi, cəmiyyətdən gələn çağırışların aidiyyəti strukturlara çatdırılmasıdır. Bu istiqamətdə işlərimizin daha da dərinləşməsi, polisin fəaliyyət istiqamətinin genişləndirilməsi, təbliğatı və eyni zamanda, hüquqi maarifləndirmənin yaxşılaşdırılması baxımından bu vacibdir. Həmçinin, hüquqi düşüncənin formalaşdırılması istiqamətində hesab olunur ki, "Facebook" sosial şəbəkəsinin yaradılması da növbəti görülən işlərdən biridir. Bu istiqamətdə işlərimiz gedir. Əsas məqsədimiz cəmiyyəti maarifləndirməkdir ki, polisin fəaliyyəti ilə bağlı məlumatlardan daha obyektiv xəbər tuta bilsinlər".

***Elşad Hacıyev:** "Əsas məqsədimiz cəmiyyəti maarifləndirməkdir ki, polisin fəaliyyəti ilə bağlı məlumatlardan daha obyektiv xəbər tuta bilsinlər"*

***Şəmsəddin Əliyev:** "Həmin səhifə polis barəsində qərəzli fikir formalaşdırmaq istəyən qüvvələrin niyyətlərini puça çıxarmaqda mühüm rol oynayacaq"*

O da məlumdur ki, son vaxtlar müxtəlif internet vasitələrində polisə qarşı qarayaxmalar olur. Polisi gözdən salmaq üçün həqiqətə uyğun olmayan məlumatlar yayılır.

"Polisə Dəstək" İctimai Birliyinin rəhbəri Şəmsəddin Əliyevin fikrincə, sözügedən səhifə belə halların qarşısının alınmasında da mühüm rol oynayacaq: "BŞBPİ-nin "Facebook" səhifəsinin yaradılması vətəndaşlarla çevik və etibarlı əlaqənin təşkil olunmasına xidmət edir. Bunun vasitəsilə vətəndaşlar polislə tetatet təmasda olmadan öz fikirlərini, mülahizələrini, cinayətkarlıqla bağlı məlumatları, hətta şəxsiyyətini gizli saxlamaqla anonim məlumat da verə bilər. Sözügedən səhifə cinayətkarlıqla mübarizədə, ictimai qayda-qanunun təmin olunmasında, vətəndaş-polis və dövlət orqanları arasında münasibətləri tənzimləmək üçün bir media vasitəsidir. Çox istərdim ki, burada vətəndaşlar arasında həddini aşma halları, polisi yanlış istiqamətdə yönəltmə cəhdləri olmasın.

**Həmin səhifə həm də polis barəsində qərəzli fikir formalaşdırmaq istəyən qüvvələrin niyyətlərini puça çıxarmaqda mühüm rol oynayacaq. Bütün bunlardan çıxış edərək hesab edirəm ki, sözügedən qərar düşünülmüş bir addımdır".**

*Vidadi ORDAHALLI*

**Məlum olduğu kimi, ötən ilin yayında Gəncədə Azərbaycan dövlətçiliyinə qarşı terror aktı oldu. Həyata keçirilən istintaq tədbirləri nəticəsində ortaya çıxan faktlar bir daha təsdiqlədi ki, Gəncə hadisələri bəzi qonşu ölkələrin radikal-klerikal dairələrinin, separatçıların və ölkə daxilində siyasi fəaliyyət pərdəsi altında şəxsi ambisiyalarını həyata keçirmək istəyən qrupların birgə yer aldığı anti-Azərbaycan qüvvələri tərəfindən dövlət və milli maraqlarımıza qarşı törədilən məkrli təxribat idi. Ancaq milli təhlükəsizliyimizə qarşı həyata keçirilən bu təxribatın qarşısı qətiyyətlə alındı və bir daha sübut olundu ki, Azərbaycan dövləti milli maraqlarımıza qarşı istənilən təhlükəni dəf etmək gücündədir.**




# Radikal müxalifətin sosial şəbəkələrdə Gəncə terrorçularına təəssübkeş münasibətinin kökü...

## ***Seyid Camal Əzimbəyli:*** *"Bunun başlıca səbəbi radikal müxalifətin xisləti ilə bağlıdır"*

Azərbaycan xalqı Gəncə terroruna sərt reaksiya göstərərək, dövlətin ətrafında sıx birləşdi. Bununla anti-Azərbaycan qüvvələrin milli maraqlarımıza qarşı planlarının həyata keçirilməsində iştirak edən terrorçuları, vətən xainlərini qəbul etmədiyini, bundan sonra da qəbul etməyəcəyini nümayiş etdirdi.

Ancaq dəhşətli məqamlardan biri ondan ibarətdir ki, xalqın adından, demokratiyadan, dünyəvi dövlətdən danışmağa iddia edən radikal müxalifət təmsilçiləri, fəalları məlum hadisələr zamanı sosial şəbəkələrdə terrorçuların təəssübünü çəkən mövqedən çıxış ediblər. Faktiki olaraq onlar bu cür fəaliyyətləri ilə terroru, ifrat ekstremizmi təşviq edən mövqe ortaya qoyublar. Onların bununla bağlı təəssübkeş mövqedən çıxış etməsi açıq şəkildə özünü göstərib. Sözügedən hadisələrdən bir il ötsə də, radikal müxalifət təmsilçiləri indinin özündə də terrorçuların təəssübkeşi qismində çıxış edirlər. Bütün bunlar onu sübut edir ki, radikal müxalifətin radikalizmi, ifrat dini fundamentalizmi dəstəklədiyi göz önündədir.

Bütün bunlarla yanaşı, maraqlıdır, Gəncə hadisələri zamanı radikal müxalifət təmsilçilərinin, fəallarının sosial şəbəkələrdə terrorçuların təəssübünü çəkən mövqedən çıxış etməsi nə ilə bağlıdır?

*"Onlar Azərbaycana qarşı ən məkrli mövqedən çıxış edən qüvvələrlə belə əməkdaşlıq etməyə hazırdırlar"*

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəyli bunu bir sıra faktorlarla əlaqələndirdi: "Bunun başlıca səbəbi radikal müxalifətin xisləti ilə bağlıdır. Sözügedən qüvvələr öz şəxsi ambisiyaları üzündən nəyə desən gedərlər. Onlar Azərbaycana qarşı ən məkrli mövqedən çıxış edən qüvvələrlə belə əməkdaşlıq etməyə hazırdırlar, təki hakimiyyət dəyişsin və qanunsuz yolla hakimiyyətə gəlsinlər. Fikirləşmirlər ki, belə məqsədlərin həyata keçirilməsi dövlətçiliyimiz üçün təhlükəli nəticələrə gətirib çıxara bilər. Bax, budur onların əsl çirkin məqsədləri. Nəzərə almaq lazımdır ki, onların apardığı mübarizə sağlam əsaslara söykənmir. Sağlam əsaslara söykənsəydi, o zaman hakimiyyət uğrunda sivil mübarizə aparardılar. Dövlətçiliyimizə zərbə vurmaq istəyən radikal dini ekstremist qüvvələrlə əməkdaşlıq edib onların təəssübünü çəkməzdilər. Göründüyü kimi, onlarda dövlətçiliyin maraqlarını qorumaq istəyi yoxdur. Radikal müxalifət təmsilçiləri yaxşı bilirlər ki, cəmiyyətdə onların sosial dayaqları yoxdur.

**Bu səbəbdən onlar radikal ekstremist qüvvələri dəstəkləməklə ümid edirlər ki, guya bu yolla hakimiyyətə gələcəklər. Ancaq bu mümkün olan iş deyil. Ona görə ki, Azərbaycan dövləti güclüdür və xalq Prezidentin ətrafında sıx birləşib".**

***Vidadi ORDAHALLI***

---

**Ermənistanın cənubunda yerləşən Amulsar qızıl yatağının istismarı məsələsi ölkədə böyük narazılığa səbəb olsa da, belə görünür ki, ölkə rəhbərliyi bunda qərarlıdır. Bir sıra etirazlara rəğmən, Paşinyan hakimiyyəti geri çəkilmək istəmir.**



# Erməni xalqı Paşinyanı "Amulsar tupikinə" sıxdı...

## ***Ramil Hüseynov:*** *"Paşinyana müxalif olan qüvvələr Amulsar amilindən ona qarşı məharətlə istifadə edəcəklər"*

Ard-arda bununla bağlı bir sıra etiraz aksiyaları keçirilir. Son aksiyalar zamanı İrəvanda 200 qadın uşaq arabası ilə Amulsar qızıl-filiz yatağının istifadəyə verilməsinə qarşı çıxıb. Uşaq arabalarında üzərlərində "Amulsar dağdır, vəssalam", "Yataqlarsız gələcək" yazılmış bannerlər var. Etirazçılar Milli Assambleyanın binasına doğru hərəkət edərkən polis təhlükəsizlik tədbirləri çərçivəsində onlara əraziyə girməyi qadağan edib. Nümayişçilərin bəziləri xəbərdarlıqlara məhəl qoymayaraq irəliləməyə çalışan zaman polis güc tətbiq edib və ərazini boşaldıb, bəzi etirazçılar isə saxlanaraq polis bölməsinə aparılıb.

Aksiya ilə paralel olaraq, Ermənistan Prezidentinin iqamətgahında Baş nazir Nikol Paşinyan, Vayotsdzor vilayətinin qubernatoru, Cermuk şəhərinin meri, icma rəhbərləri və ekoloqların iştirakı ilə Amulsar yatağının istismarı ilə bağlı iclas keçirilib. Görüşün yekununda Baş nazirin mətbuat katibi Vladimir Karapetyan jurnalistlərin qarşısına çıxaraq bildirib ki, iclas zamanı bütün yanaşmalar diqqətdən keçirilib, buna baxmayaraq, hökumət yatağın fəaliyyətini bərpa etməyi məqbul sayır. Etirazların artdığını görən Baş nazir Nikol Paşinyan "Facebook" səhifəsində canlı yayım zamanı bildirib ki, beynəlxalq ekspertizanın rəyi belə nəticəyə gəlməyə imkan verir: qızıl yatağının işlənməsi ekologiyaya ziyan vurmayacaq. O cümlədən də söhbət mədənin yaxınlığında yerləşən Cermuk kurort şəhərinin mineral sularından, Sevan gölünün və yaxın çayların suyundan gedir. Paşinyan bəyan edib ki, yaxın zamanda Amulsarda qızıl hasilatının ziyanlı olduğunu sübut edən amillər ortaya çıxmazsa, mədənin işlənməsinə icazə veriləcək.

Onu da qeyd edək ki, bu günlərdə Ermənistan İstintaq Komitəsi "Advanced Resources Development" (ELARD) mütəxəssislərinin Amulsar barədə hesabatını dərc edib. Hesabatda 16 bəndin nəzərə alınacağı təqdirdə ekoloji risqlərin idarə oluna biləcəyi göstərilib.

Onu da qeyd edək ki, təmiz qızıl ehtiyatına görə ölkənin ikinci yatağı olan Amulsar yatağı eyniadlı dağda, 3 min metr yüksəklikdə, Arpa və Vorotan çaylarının vadisində, kurort şəhəri olan Cermukdan 13 km aralıda yerləşir. Geoloqların fikrincə, yataqda təxminən 31 milyon ton qiymətli filiz və 40 ton təmiz qızıl var.

Belə görünür ki, Ermənistan hakimiyyəti gəlir əldə etmək üçün yatağın istismarında qərarlıdır.

*"İstənilən halda, mədənin istismarı asan olmayacaq"*

Ancaq buna qarşı ölkədə müxtəlif səviyyələrdə etirazların səngimək bilməməsi bunun heç də asan olmayacağından xəbər verir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən VİP-in sədr müavini Ramil Hüseynov fikrincə, vəziyyətin bu cür davam etməsi ondan xəbər verir ki, mədənin istismarı heç də asan olmayacaq: "Düzdür, Amulsarın istismarı yoxsul Ermənistan iqtisadiyyatı üçün böyük əhəmiyyət kəsb edir. Həmin mədən istismara verilsə, ölkə iqtisadiyyatı bundan faydalancaq. Ancaq bu yatağın istismarının ekologiyaya vuracağı zərər də qaçılmazdır. Paşinyan bununla bağlı nə qədər arqumentlər səsləndirsə də, ona inananlar azdır. Ən azından ona görə ki, Amulsar mədəni ilə Sevan gölü və Cermuk arasında məsafə yaxınlığı var. Belə olan halda, mümkün deyil ki, istismar zamanı yaranan tullantılar ora təsir etməsin. Mənə elə gəlir ki, Paşinyana müxalif olan qüvvələr Amulsar amilindən ona qarşı məharətlə istifadə edəcəklər. Ola bilsin ki, bu, Ermənistan cəmiyyətində Paşinyana qarşı ciddi sosial narazılıqlara rəvac versin. İstənilən halda, mədənin istismarı asan olmayacaq".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycanın Ermənistan üzərində üstünlüyü yeni formalar alır

**Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanmasının bu gün işğalçı Ermənistana kifayət qədər baha başa gəlməsi düşmən ölkənin özündə də açıq etiraf edilir. Real vəziyyət də göstərir ki, Qarabağ münaqişəsinin nizamlanmasının Ermənistana sosial-iqtisadi təsirləri getdikcə daha dağıdıcı xarakter alır. Amma konfliktin təcavüzkar tərəfə təsiri təkcə sosial-iqtisadi məqamlarla məhdudlaşmır.**

Məsələnin Ermənistana siyasi, hərbi, diplomatik təsirləri mənfi müstəvidə də kifayət qədər yüksəkdir. Bu fonda konfliktin çözümünün gecikməsi Ermənistanın bir dövlət olaraq çöküşünü sürətləndirir. Eyni zamanda, baş verənlər sülh prosesinin özünün Ermənistan üçün əlçatmaz olduğunu nümayiş etdirir. Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin Azərbaycan və rus dillərində yenicə çapdan çıxmış "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi: problemin mənbələri və nizamlanma perspektivləri" kitabında da bu xüsusda maraqlı fikirlər yer alır. Akademik yazır: "Bütün bu illər ərzində erməni cəmiyyəti döyüş meydanında qazanılan "qələbə"ni tezliklə diplomatik sahədə möhkəmləndirmək ümidi ilə yaşayıb. Lakin Ermənistan rəhbərliyi bir məsələni başa düşə bilməyib ki, qonşu dövlətə təcavüz etməklə, onun ərazisini işğal etməklə, etnik təmizləmələr aparmaqla, şəhər və kəndlərini viran qoymaqla, Ermənistan əslində qalib gəlməyib, uduzub! O bu qədər fürsəti əldən verərək, sülhü uduzub. Bunu başa düşmək üçün bugünkü Azərbaycanı Ermənistanla müqayisə etmək, onların sosial-iqtisadi inkişafında fərqi qiymətləndirmək kifayətdir və bu fərq ildən-ilə daha da artacaq".

Qeyd edilənlərdən bir daha bəlli olur ki, Ermənistan bütün mühüm istiqamətlər üzrə Azərbaycan qarşısında həqiqətən də daha zəif duruma düşməkdədir. Bura erməni diplomatiyası da daxildir. Elə erməni mediasında da etiraf edilir ki, "məxməri inqilab"la hakimiyyətə gələn Nikol Paşinyan baş nazir olduqdan sonra Ermənistanın onsuz da zəif və qeyri-effektiv olan diplomatiyası bir az da uçuruma doğru gedib. "1in.am" yazır ki, Azərbaycan diplomatiyası effektiv çalışdığı halda, Ermənistanda əks vəziyyət müşahidə olunur: "Bunlar xarici siyasətimizin, diplomatiyamızın uğursuzluğunun nəticəsi hesab edilməlidir. Ermənistanın xaricdəki səfirləri və digər diplomatik nümayəndəlikləri nə edir? Ermənistan diplomatları xarici həmkarları ilə nədən danışırlar? Dünya paytaxtlarında kimi təmsil edirlər, ümumiyyətlə, diplomatlarımız hansı gündəmlə işləyirlər? Paşinyan administrasiyası hər vəchlə dünyaya göstərmək istəyir ki, guya Ermənistan investisiya üçün əlverişlidir. Lakin dünya dövlətlərinin ölkəyə marağı sıfırdır. Bu isə hər şeydən əvvəl xarici siyasətin, diplomatik kadrların hansı səviyyədə olmasının göstəricisidir. Ermənistan diplomatiyası ölkənin hədəf və çağırışlarına xidmət edə bilən tezisləri yarada bilməyib. Ermənistanı dünya ölkələri üçün maraqlı etmək istəyiriksə, ilk növbədə, xarici siyasət və diplomatiyanın fəlsəfəsini, diplomatik heyəti dəyişdirməliyik. Bu, Ermənistan üçün ölümcül bir problemdir. Ermənistana marağın ildən-ilə azaldığı, xarici siyasətdə ardıcıl uğursuzluqlar, ölkədə tüğyan edən demoqrafik böhran fonunda isə Paşinyan və onun komandası diqqəti Qarabağ cəbhəsinə yönəldib xal qazanmaq istəyir. Beynəlxalq dəstəyi itirən Ermənistan "Qarabağ kartı" ilə əhalisini ələ almağa çalışır. Amma bu artıq heç bir effekt vermir". Hadisələrin bu səpkidə inkişafı isə Ermənistanın Qarabağ məsələsində mövqelərinin sürətlə zəifləməsi anlamına da gəlir.

Erməni mediası diqqəti ona da yönəldir ki, İrəvan informasiya və digər məqamlar üzrə mübarizədə də Bakıdan artıq çox geridə qalır. Buna səbəb kimi, Bakıdan fərqli olaraq, İrəvanın hərbi, diplomatik kanallarla bağlı məlumatının heç də həmişə həqiqəti əks etdirməməsi göstərilir. Məsələn, sərhəd olayları ilə bağlı son proseslər qeyd edilənlərə əyani misal kimi qeyd olunur. Məlumdur ki, bu günlərdə azərbaycanlı sərhədçilər Azərbaycan-Ermənistan sərhədində bir sıra strateji yüksəklikləri tutub. Dövlət Sərhəd Xidmətinin Aparat rəhbəri, general-mayor Elçin İbrahimov qeyd edib ki, bununla yanaşı mövqelərimizin irəli çəkilməsi də təmin edilib: "Həmçinin, strateji yüksəkliklər ələ keçirilib. Bununla da Ermənistan Silahlı Qüvvələrinin döyüş postlarına və postlara hərəkət edən yollara nəzarət etmək üçün optimal şərait yaranıb". Aprel döyüşlərindən və Günnüt qələbəsindən sonra bunlar Ermənistan üçün növbəti sərt zərbə sayılır. Elə bu səbəbdən düşmən tərəf təhlükəli nəyinsə baş vermədiyini göstərmək üçün saxta xəbərlərə əl atır. Belə ki, Dövlət Sərhəd Xidmətinin "Qazax" sərhəd diviziyasının Ermənistanla sərhəddə yeni taktiki və strateji yüksəkliklər tutduğu haqda verilən açıqlamalardan sonra erməni tərəfi də guya hansısa addımlar atdığını bəyan edir. Məsələn, erməni hərbi ekspert Artur Yegizaryan "Ermənistan ordusunun Azərbaycanla sərhədə 140 hektar torpaq azad etdiyini" bildirib. Və iddia edib ki, bu "irəliləmə" nəticəsində Ermənistan-Gürcüstan qaz kəmərinə təhlükə sovuşub, üstəlik, Azərbaycandan Gürcüstana gedən şosse yoluna nəzarət imkanı yaranıb. Düzdür, Azərbaycan Müdafiə Nazirliyi Ermənistan ordusunun "140 hektar torpaq azad etməsi" haqda iddiaları rədd edib, belə bəyanatların istehza doğurduğunu bildirib. Lakin bu dəfə Ermənistan parlamentinin spikeri, hərbi xidmət üzü görməyən Ararat Mirzoyan iddia edib ki, Ermənistan ordusunun hərəkətləri nəticəsində Tavuş vilayətinin Çinari kəndinin təhlükəsizliyi tamamilə təmin edilib: "Çinari daha atəşə tutula bilməz. Ermənistana gedən qaz kəməri də təhlükəsizdir". Amma onun bu yalanını Azərbaycan tərəfindən öncə ermənilər özləri ifşa edib. Belə ki, hərbi sahə üzrə ixtisaslaşmış "razm.info" saytının koordinatoru Karen Vrtanesyan bu xüsusda informasiyanın mötəbərliyini sual altında alıb, üstəlik, spikerin hərbi məsələlərdən qətiyyən baş çıxarmadığını ortaya qoyub: "1. Çinarinin qaz kəməri ilə heç bir əlaqəsi yoxdur. Onlar bir-birindən 50 kilometr aralıdır. 2. Bizim Çinari istiqamətində mövqelərimiz müəyyən qədər yaxşılaşıb, amma Azərbaycanın bütün mövqeləri də öz yerində qalır və kəndin üzərində yüksəlir. Atəş təhlükəsi əvvəlki kimi qalır. Kim Çinari kəndində nə vaxtsa olubsa, başa düşməlidir ki, atəş təhlükəsi düşmənin kəndin üzərində yüksələn mövqeləri qaldıqca davam edəcək. Spikerin bu cür "şar üfürməyi" Azərbaycan tərəfini cavab tədbirləri görməyə vadar edə bilər. Hər bir belə axmaq və məsuliyyətsiz hay-küy bizim hərbi qulluqçular üçün əlavə ciddi risqlər yaradır". Qeyd edək ki, Çinari kəndinin ətrafındakı hakim yüksəklik Azərbaycan ordusunun nəzarətindədir və həmin yüksəklikdən nəinki bu kəndi, eləcə də Ermənistanı Gürcüstanla birləşdirən əsas magistralı, erməni ordusunun üzbəüz mövqelərini nəzarət altında saxlamaq mümkün olur. Məhz bu vəziyyətdə erməni mediasında etiraf edilir ki, informasiyaların reallığa söykənməsi baxımından da Azərbaycan Ermənistandan çox irəlidədir. Rusiyalı hərbi ekspert Aleksey Xlopotov da məsələyə eyni prizmadan yanaşır. O, həmçinin, sərhəddə baş verənləri Bakının təkcə hərbi yox, həm də siyasi uğuru kimi təqdim edir: "Azərbaycanlı sərhədçilərin Azərbaycan-Ermənistan dövlət sərhədini qorumaları rəsmi Bakının münaqişəni siyasi yolla həll etmək niyyətini nümayiş etdirir". Onun sözlərinə görə, Ermənistanın vaxtaşırı təxribatlarına baxmayaraq, Azərbaycan sərhədin silahsızlaşdırılması nümunəsi göstərir: "İndi rəsmi İrəvan Azərbaycan ordusunun guya onların ərazilərini atəşə tutması barədə beynəlxalq təşkilatlara şikayət edə bilməyəcək. Əksinə, biz görürük ki, hələlik yalnız Ermənistan ordusu Azərbaycan sərhədçilərinə snayperlərdən atəş açır. Sərhəd rejiminin qurulması üzrə işlərin aparılmasının yüksək risqli və təhlükəli olmasına rəğmən, belə şəraitdə peşəkarlar - sərhədçilər sərhədin qorunması ilə məşğul olmalıdır. Bu, potensial olaraq sərhəd xəttində gərginliyi azaltmalıdır. Ordu isə öz işi ilə məşğul olmalıdır, döyüş hazırlığını artırmalı və sərhədçilər üçün dayaq, etibarlı arxa cəbhə rolunu oynamalıdır".

A.Xlopotov qeyd edib ki, Azərbaycanın öz Silahlı Qüvvələrini və Sərhəd Xidmətini təkmilləşdirmək üçün addımlar atmasına baxmayaraq, Bakı işğal faktoruna görə Ermənistan və İranla dövlət sərhədinin böyük sahələrinə nəzarət etmək iqtidarında deyil: "Əfsus ki, dövlət sərhədinin qorunması mexanizmlərinin təkmilləşdirilməsinə rəğmən, rəsmi Bakının Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsinə və Azərbaycan-Ermənistan dövlət sərhədinin 435 kilometrlik hissəsinə nəzarət etmək imkanı yoxdur. Sözügedən sahələr Ermənistanın işğalı altındadır. Söhbət beynəlxalq səviyyədə tanınmış Azərbaycan sərhədindən gedir. İrəvan bunu tanımaqdan imtina edir. Ermənistanı əzəli Azərbaycan ərazilərinin işğalını dayandırmağa məcbur etmək və Azərbaycanın Dağlıq Qarabağ regionunda yaradılmış separatçı rejimi ləğv etmək məsələsində dünya ictimaiyyətinin, o cümlədən BMT-nin daha fəal iştirakı lazımdır".

Bu açıqlamalardan da aydın görünür ki, Azərbaycan Qarabağ münaqişəsi ilə bağlı yaranmış indiki vəziyyətdə Ermənistandan kifayət qədər üstün mövqedədir. Qarşıdakı dövr ərzində də bu üstünlüyün əhəmiyyətli dərəcədə artmaqda davam etməsi gözlənilir. Təbii ki, proseslərin bu səpkidə inkişafı Qarabağ münaqişəsinin həllinə də təsirsiz ötüşmür və Azərbaycanın daha güclü mövqe sahibinə çevrilməsini təmin edir. Güclü mövqe sahibi kimi isə Azərbaycan Qarabağ məsələsində istəyinə daha tez müddətdə nail ola biləcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Son günlərdə işğalçı Ermənistanda xüsusi diqqət mərkəzində yer alan məsələlərdən biri də sabiq prezident Serj Sarkisyanın həbsə atılacağı ilə bağlıdır. Robert Köçəryandan sonra Serj Sarkisyanın da həbsə atılması Nikol Paşinyan iqtidarının "Qarabağ klanı"na növbəti böyük zərbəsi olacaq.**

# Ermənistanda vəziyyət qarışır - "Paşinyanın qorxulu yuxuları başlayıb"

Xatırladaq ki, Serj Sarkisyanın həbs olunacağına dair məlumatı onun kürəkəni Mikael Minasyan səsləndirib. Mikael Minasyan ölkəsində ötən il baş tutan "məxməri inqilab"ı şərh edərkən bildirib ki, 2018-ci ildə Ermənistanda inqilab yox, hakimiyyət dəyişikliyi baş verib. Ermənistanın Vatikandakı sabiq səfiri olan Mikael Minasyan onu da qeyd edib ki, ötən ilin aprel-may hadisələrini hakimiyyət dəyişikliyi kimi səciyyələndirmək olar. Onun sözlərinə görə, həmin dövrdə ölkədə inqilabi şərait yetişsə də, bu hadisə heç də "məxməri inqilab" olmayıb: "İndiki hakimiyyətin dövrünü isə ən təhlükəli - dərin məyusluq və növbəti kədərli nəticələr doğuracaq şərait kimi qiymətləndirmək olar. Hakimiyyət dəyişikliyindən sonra yeni hakimiyyət xalqı birləşdirmək, qurmaq və yaratmaq, bir sözlə, əsl inqilabi prosesləri həyata keçirmək imkanı qazandı. İnsanların görünməmiş dəstəyindən isə dövlətçilik və xalq naminə istifadə etmək olardı. Bunun üçün keçmişin zəncirlərindən qurtulmaq, yazılmamış qanunların əsiri olmamaq və yeni komanda yaradaraq qeyri-adi nəticələr əldə etmək lazım idi. Aprelin 23-dən sonra Ermənistan üçün uçuş zolağı açıq idi və əlverişli hava mövcud olub". Amma Paşinyan hakimiyyətinin tamamilə başqa yol seçdiyini təəssüflə qeyd edən diplomat vurğulayıb ki, yeni hökumət islahatları deyil, köhnə qvardiyadan intiqam və qisas yolunu seçdi. O əlavə edib ki, heç bir peşəkar kadr öz fəaliyyətini və həyatını qisasçı hakimiyyətlə birləşdirmək istəməz və qisasın daha bir qisas doğuracağını hamı başa düşür: "Peşəkarların olmadığı hər hansı hakimiyyət isə öz varlığını qorumaq üçün mütləq yeni repressiyalara əl atır. Biz açıq gözlə artıq bu mərhələyə daxil olmuşuq və erməni xalqı inqilab əvəzinə mənasız hakimiyyət dəyişikliyi əldə edib". Keçmiş diplomat bu fonda Serj Sarkisyanın da həbsə atılmasının gözlənilən olduğunu vurğulayıb.



Ermənistan Respublika Partiyasının sədr müavini Armen Aşotyan bununla bağlı bildirir ki, Serj Sarkisyanın yaxın vaxtlarda tutulması haqqında Mikayel Minasyanın müsahibəsi siyasi və informasiya partlayışına təsir edib: "Bu çoxdan bəlli idi. Üçüncü prezidentin həbs olunması hazırkı baş nazir qrupunun sonuncu jokeridir. Şəxsi laqeydlik, siyasi gücsüzlük, ölkənin gündən-günə ağırlaşan problemlərində uyğunsuzluq və acizliyi ört-basdır etmək üçün qalmaqallı şouların səhnələşdirilməsi məsələlərində ixtisaslaşmış Nikol Paşinyan yaxın günlərdə özünün sonuncu silahına - Serjin həbs olunmasına müraciət edib. İllərlə davam edən yalan, fırıldaqçılıq, nifrət kampaniyası və "günahkar sağ Serjdir" primitiv konseptinin xaç atası əsərləri cəmi bir il yarım müddətdə o qədər pisləşib ki, o, şəxsi siyasi həyatı bir neçə ay uzatmaq üçün bu sonuncu mümkün addıma müraciət edəcək". Aşotyan qeyd edib ki, Paşinyanın qorxulu yuxuları artıq başlayıb və bu onun sonunu gətirəcək: "Serj oturmağa hazırdır. Serj xalqın xətrinə oturacaq ki, 15 ay əvvəl onun istefasına sevinən minlərlə insan nəhayət hipnozdan çıxmaq üçün tarixi şans qazansın. Yaxşı, onu da oturtdunuz, sonra nə edəcəksiniz? İnsanlara necə izah edəcəksiniz ki, Serjin həbsxanada oturmasından sonra nə üçün onların həyatı yaxşılaşmır, maaşlar artmır, Qarabağ məsələsi maksimal ermənipərəst həllini tapmır, ölkə ətrafında geosiyasi dairə sıxılır? Və vaxtında səhv etmiş, problemlərdən yorulmuş insanlar görəcəklər ki, reallıqda sağ Serj günahkar deyil. Və həqiqi günahkarı çox tez tapacaqlar. Serjin həbs olunması insanların gözlərini açacaq və bu, Nikolun sonunun başlanğıcı olacaq. Onun oturmaq üçün problemi yoxdur. O həmişə xalq marağının tələb etdiyi yerdə olub. Yaxşı, Nikol, indi də səni görüm. Ermənistanı səndən azad etmək üçün bizə kömək et. Serj hazırdır".

Bütün bunlarla bağlı "Iragir.am" portalı yazır ki, baş verənlər Ermənistan daxilində yeni qarşıdurmanı daha da dərinləşdirəcək: "Ermənistanın Vatikandakı keçmiş səfiri, 2018-ci ildə Ermənistanda inqilabın yetişdiyi, amma başa çatmadığı haqda post edən Mikael Minasyan bir sıra yeni maraqlı açıqlamalar verib. Birincisi, o, Serj Sarksyanın və bir sıra generalların tezliklə həbsini ağlabatan sayır, ikincisi, işarə edir ki, Ermənistanın yeni hökuməti, ən azı, üç önəmli məsələni həll etməlidir - Amulsar, İstanbul konvensiyası və Dağlıq Qarabağ problemini. Ermənistan Respublika Partiyasının sədr müavini Armen Aşotyan da bundan sonra "Serjin xalqın xatirinə həbsdə əyləşməyə hazır olduğu" və Serj Sarksyanın həbsinin "geri sayımın" başlanğıc atəşi ola biləcyi haqda bildirib.

Minasyan və Aşotyanın bəyanatlarının tonuna görə, Serj Sarksyanın həbsi, praktik olaraq, həll olunub. Və Ermənistanın bir sıra siyasi, informasiya və biznes çevrələrinə Minasyanın təsir imkanları nəzərə alınarsa, istisna deyil ki, Ermənistanda bununla hansısa proseslərə start veriləcək. Yönlər göstərilib - Amulsar, İstanbul konvensiyası və Qarabağ problemi. Amulsara gəlincə, hər şeyə əsasən, mədənin istismarı üzrə hökumətin müsbət qərarı, ekoloqlar və ictimai qrupların polislə toqquşmaya gətirə biləsi sərt müqaviməti gözlənilir. İstanbul konvensiyasının mümkün ratifikasiyası da siyasi qarşıdurma vasitəsinə çevrilir: konvensiyanın mahiyyəti, demək olar, müzakirə olunmur və söhbət daha çox iğtişaşlar törədəcək hansısa etirazlara hazırlıqdan gedir. Qarabağ probleminə dair isə Azərbaycanda qeyri-adi fəallıq görmək olar. Bundan başqa, Azərbaycan mediasında Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" bəyanatının danışıqlar prosesini batırdığından xəbər verdiyi haqda ideya yaradılır ki, bu da savaşın başlanmasına gətirər. Bakı Rusiya ekspertlərini yardıma çağırmağa, onların dili ilə Nikol Paşinyana danışıqlar formatını dəyişməyin yolverilməzliyi "xəbərdarlığı" etməyə çalışır.

**Ermənistanın əvvəlki hakimiyyəti Nikol Paşinyanın bəyanatını birbaşa pisləməyib, amma eskalasiya və ya tənzimləmədə arzuolunmaz proseslər halında onu ittiham etmək bəhanəsini qaçırmayacaq. Son həftə hadisələrinin mozaikasına əsasən güman etmək olar ki, Ermənistanın payızı gərgin olacaq. Xüsusən də oktyabrın 1-də İrəvanda Avrasiya İqtisadi Birliyinin sammiti baş tutacağına və Rusiya və Ermənistan KİV-lərində Putinin İrəvanda Robert Köçəryanla görüşmək istədiyi haqda məlumat güclü şəkildə şişirdildiyinə görə".**

***Tahir TAĞIYEV***

# Şəbəkə radikalları - Əli Kərimli - Mübariz Mənsimov üçbucağında "yeni İbrahimbəyov" doğuluşu...

## Mənsimovun radikal islamçılarla eyni vaxtda fəallaşması...



Aydın QULİYEV

**Xarici ölkələrdə əslən Azərbaycandan müəyyən sayda zəngin iş adamlarının olması qürurverici fakt olsa da, bəzən, əsasən də xarici ölkələrin vətəndaşlığını qəbul etmiş həmin varlı soydaşlarımızdan siyasi məqsədlər üçün istifadə etmək niyyətləri ortaya çıxır və bəla budur ki, özləri də buna həvəslə gedirlər.**

Belə təzahürləri əvvəllər ölkənin həssas məqamlarında hiss etmişik. Heç də uzaq olmayan keçmişdə, 2013-cü ildə Azərbaycanda keçirilən prezident seçkiləri ərəfəsində məhz "milyarderlər kartı" ilə ölkəmizə təzyiqlər edildiyi unudulmayıb. Yadınızdadırsa, həmin vaxt hətta Azərbaycan hakimiyyətinə meydan oxumaq kimi cəsarətə sahiblənən "Milyarderlər ittifaqı" adlı bir qurum da təsis olundu. Sonra həmin ittifaqdan ilhamlanaraq Rüstəm İbrahimbəyov kimi qeyri-siyasi bir şəxs hətta radikal müxalifətin "birləşdirici" fiquru olmaq ümidi ilə səhnəyə çıxarıldı. Onu 2000-ci illərdə Balkanlarda hakimiyyətə gəlməyi bacarmış Koştunitsa ilə də müqayisə edirdilər. Əslində isə məlum oldu ki, o vaxtlar R.İbrahimbəyov üçün siyasi katalizator rolunu Moskvada qərar tutmuş əslən azərbaycanlı milyarderlərin pulu oynayırmış. Proseslərin qızğın vaxtında Putin Bakıya səfər etdi. İlham Əliyevlə keçirilən görüşlərdən sonra R.İbrahimbəyovun kartı qapanmış oldu. Keçmişə bu ekskursu təsadüfən etmədik. Əslində nəhənglərin bir adi tərpənişi ilə kənardan böyük görsənən karton evciklərin rahatca dağılması nümunəsini gördük.

Bizi bu xatırlatmaya vadar edən səbəb son vaxtlar xarici ölkədə yaşayan və əslən azərbaycanlı olan milyarderlərdən birinin indi məhz siyasi zəmində fəallaşması, əslində fəallaşdırılmasıdır. Son zamanlar, xüsusilə də sosial şəbəkələrdə aktivləşən Mübariz Mənsimov Azərbaycan hakimiyyətinə qarşı radikal mövqedə dayanan müxalifət liderlərindən heç nə ilə fərqlənməyən mövqeləri sərgiləməyə başlayıb. Mübariz Mənsimov Azərbaycan dövlətinə qarşı məlum kampaniyaçılığın aparıldığı dönəmdə aktivləşməyə başlaması təsadüfə oxşamır. Gəncə hadisələrinin ildönümü günlərində və TANAP-ın istifadəyə verilməsi ərəfəsində də radikal islamçı qrupların Azərbaycan əleyhinə açıq hücumlar etdiyi bir vaxtda Mənsimovun fəallaşmasının başqa nə mənaları ola bilər? Mənsimov, əslində bütün Azərbaycan hakimiyyətini hədəf alan açıqlamalarını SOCAR üzərindən edir. Hədəf olaraq SOCAR-ı seçir və həmin mövzuda sadə vətəndaşların psixikasına hesablanan populist çıxışlar edir. Son paylaşımlarında isə təhqirə, söyüşə, hətta şantaja keçib.




### Gəmisi batırılan kimdir?

Son günlər Məhəmməd Əmin Rəsulzadə gəmisi ilə baş vermiş insidentlə əlaqədar "Palmali" Şirkətinin rəhbəri ilə bəzi media qurumları arasında ciddi söz savaşı da müşahidə olunur. Sosial şəbəkələrdə də Mənsimovu dəstəkləyənlər və əlehdarları arasında qızğın polemika gedir. Mübariz Mənsimov bu yaxınlarda təntənəli açılışını etdiyi və media üzərindən ciddi piarını apardığı Məhəmməd Əmin Rəsulzadə adlı gəminin başqa gəmi ilə toqquşması faktını Azərbaycan hakimiyyətinin üzərinə atmaq istəyir. Açıq şəkildə iddia edir ki, yeni ad verdiyi gəmini Azərbaycan hakimiyyəti ilə sıx bağlı olan dairələr batırmaq istəyib. Çox maraqlı və təzadlı vəziyyət yaranır. Nə vaxtdan Mübariz Mənsimov Rəsulzadəni Azərbaycan hakimiyyətindən çox sevməyə başlayıb? Onda ADR rəhbərinə belə aşırı sevgi var idisə, niyə M.Ə. Rəsulzadənin adını öz gəmilərinə lap sonda verirdi? Hətta Mənsimov sabiq MTN rəhbəri Eldar Mahmudovun atası Əhməd Məhmudovun adına belə gəmi verəndə Rəsulzadə onun yadına düşmürdü? Azərbaycanda özünə yaxın olan media mənsubları Rəsulzadə gəmisini böyük bir hadisə kimi təqdim edəndən sonra həmin gəminin məhz kimlərsə tərəfindən batırılmaq cəhdi ilə bağlı növbəti dezinformasiyanı dövriyyəyə buraxıb.

Maraqlıdır ki, sosial şəbəkə araşdırmaları Mübariz Mənsimovun fəaliyyətlərinə son vaxtlar Əli Kərimlinin tərəfdarları olduğu deyilən "trolların" daha fəal dəstək verildiyini fenomen kimi ortaya qoyur. Axı indiki Azərbaycan hakimiyyəti Mübariz Mənsimova qarşı hələlik hansısa siyasi təqib və ya siyasi xarakterli ittiham jestləri nümayiş etdirməyib, ümumən onun iqtisadi və ya maliyyə kontekstində sıxışdırıldığı barədə nəticəyə əsas verən bir şey də yoxdur. Ancaq görünən odur ki, Mənsimov nəyin bahasına olursa olsun, onunla SOCAR arasında baş verənləri siyasiləşdirməkdə və ya ən azı, siyasi məsələ kimi təqdim etməkdə maraqlıdır. Beləliklə, bu gün formaca ayrı-ayrı müstəvilərdə oturmuş Əli Kərimli və Mabariz Mənsimovun ətrafında cərəyan edən proses və təzahürlər əslində bir-birini tamamlayır və əlaqəlidir. Ortada mövcud olan oxşarlıqlar az qala fakt kimi dil açaraq danışmaq istəyir. Əli Kərimli siyasətdə müflisləşmiş və perspektiv baxımından "opallaşmış" fiqur olduğu halda, Mübariz Mənsimov biznesdə müflisləşmə relslərinə təzə-təzə düşən, perspektivi təbii ki, "opallaşmağa" doğru gedən fiqurdur. "Dərdli dərdlini tapar" məntiqi ilə düşünsək, aradakı oxşarlıqların hər iki fiqur üçün bundan sonra eyni tele ssenarisi yaza biləcəyi istisna deyil. Mənsimovun düzəltdiyi gəmi sözün həqiqi mənasında batdığı kimi, Əli Kərimlinin siyasi "gəmi"sinin çoxdan batdığı analitik düşüncəli siyasi dairələr üçün bir reallıqdır.

### Əli Kərimlinin radikal "trolları" Mənsimovun yanında...

Beləliklə, sosial şəbəkələrdə indiyədək əsasən Əli Kərimovun yanında və əlinin altındakı kimi görünən "trollar"ın bu gün həm də Mübariz Mənsimovu aktiv şəkildə müdafiəyə baş vurmasının arxasında xeyli maraqlı mətləblər görünür.

*(Ardı 9-cu səh.)*

*(Əvvəli 8-ci səh.)*

Əli - Mübariz - sosial şəbəkə radikallarından ibarət üçbucaq məkanda radikallar və Mübariz Mənsimov daha fəal və təşəbbüskar göründükləri halda, Əli Kərimli özü bir qədər donuq və seyrçi mövqedə görünür. Daha dəqiq desək, Mübariz Mənsimov sosial şəbəkə radikallarının onu müdafiə etməsindən çox məmnun görsənir və hətta istisna deyil ki, sosial şəbəkələrdə aktivliyin bir çoxları üçün şəxsi qazanc mənbəyinə çevrildiyi indiki məqamda Mənsimov "kisə ağzı açaraq" onları müəyyən qədər şirnikləndirir də... Əli Kərimlinin sosial şəbəkələrdəki fəal radikal "trolları" da Mübariz bəyə doğru meyllənməni 1993-cü ildə hakimiyyətdən gedəndən sonrakı dövr ərzində düşmüş maraqlı şans kimi əldən qaçırmaq istəmir, bu yönümdə yaxşıca qazanmaq, Mənsimovun hələlik geniş maddi imkanlarına söykənmək perspektivinin olduğunu görürlər. Bir az da konkret desək, radikal şəbəkə "trolları" "indiyə qədər Əli Kərimli bizə nə verə bildi" və "Mübariz Mənsimov bizə nə verə bilər" suallarının cavabları arasında seçim etməyə başlayıblar. Əli Kərimlinin onlara bundan sonra hər hansı siyasi perspektiv vəd edə biləcəyinə inamlar, demək olar ki, sarsılıb. Əli Kərimliyə daha nə qədər inqilabçı adları vermək olar? Gürcüstanda cəmi bircə dəfə ayağa qalxıb hakimiyyəti dəyişmiş Saakaşvili ilə müqayisə etdilər, heç bir nəticə olmadı. Saakaşvili hakimiyyətə gəldi də, getdi də, üstəlik başqa dövlətdə az qala prezident seçilmək şansına yaxınlaşdığı halda, Əli Kərimov hələ yerində sayır. Onu Yuşşenko ilə müqayisə etdilər, yenə də nəticə hasil olmadı. Təkcə Qırğızıstanda "yüz ilin Akayev dönəmini" devirmiş Bakıyevlə müqayisə etmədilər nədənsə... Bütün bu müqayisələrin serial uğursuzluğundan sonra sosial şəbəkə radikallarının Əli bəyin "böyük siyasi perspektivinə yetişmədən ondan üz çevirmələri tam təbiidir. Bu vəziyyətdə başdan-ayağa siyasiləşmiş radikalların stavkanı Əli bəydən Mübariz Mənsimova doğru dəyişdiklərinin əlamətləri görünür.

**Mənsimovu Milli Şuranın sədri postunda görmək Əli bəyin maraqlarına cavab verir**

Hər üçünün ayrıca maraqları var. Əli Kərimov neçə illik elektoratının Mənsimova doğru meyllənməsini, onu müdafiə etməsini ona görə seyr edir ki, nə siyasi perspektiv, nə də maddi dəstək verə bilmədiyi radikalların bir gün ən ifrat formada onun özünə qarşı duracaqlarından çox çəkinir və sakitcə onların Mənsimovun "qapılarına yaxınlaşmasına" dözür. Radikal şəbəkə "trollarının" marağı həm birbaşa, həm də dolayı xarakter daşıyır. Mübariz Mənsimovun artıq sürətlə azalmağa üz tutmuş varidatından pay qoparmaq onlar üçün birbaşa maddi maraq formasıdır. Dolayı maraq isə Mənsimovun getdikcə özünü, anti-SOCAR müstəvisində olsa da, əslində siyasi hakimiyyət opponenti kimi göstərməkdə maraqlı olması ilə bağlıdır. Radikal "trolların" müəyyən qisminin İlham Əliyev hakimiyyətinə qarşı barışmaz düşmənçilik mövqeyində mıxlandıqları bir faktdır. Belədə onlar "indiyə qədər Əli Kərimlinin ətəyindən, bundan sora isə Mübariz Mənsimovun ətəyindən tutaraq da gedəcəyik" kimi fikirlərin təsiri altına düşürlər. Soruşula bilər ki, bəs üçbucağın vacib tərəfinə çevrilmiş Mənsimovun özünün burada marağı nədən ibarətdir? Mənsimov, əvvəla, sakit bir formada çox iddialı Əli Kərimlini siyasət meydanında sıxışdıraraq, tərəfdarlarına lazım olmayan gərəksiz fiqura çevirir. Bu istiqamətdə ən incə təxminlərdən biri budur ki, Mənsimov hansısa sifarişi (?) yerinə yetirir. İkinci, biznesdə "gəmisi yavaş-yavaş batırılan" Mübariz Mənsimov bu qürubun qarşısını almaq, ya da onu bu günə qoyanlara hədələyici mesajlar göndərmək üçün radikal-narazı siyasi elektoratla birləşdiyini və ya birləşə biləcəyini nümayiş etdirir. Üçüncü, bu gün yarıcan vəziyyətdə olan Milli Şuranın 2013-cü ildəki "çox kirli doğuluş" tarixini yəqin Mübariz Mənsimov da yaxşı bilir və "niyə də olmayım" deyərək, Milli Şuranın başına keçmək imkanlarını götür-qoy edir. Milli Şuranın tarixən hansısa milyarderlərdən mayalanmağa meylli olduğunu, 2013-cü ildə Moskvaya - Abbas Abbasov qrupuna əl ataraq, sonda ibrahimbəyovun üzərində dayandığını nəzərə alsaq, məsələ çox ciddiləşir və biznesdə "batan Mənsimovun" siyasətdə müvəqqəti baş qaldırmaq şanslarının yarandığını görürük. Əslində "Mənsimov Milli Şuranın sədri postunda" perspektivi bu gün Əli Kərimlinin özü üçün də cəlbedicidir. Məlumdur ki, hamının yanında ikinci olmaq onun taleyində özünü çoxdan göstərən bir ənənəyə çevrilib. Elçibəyin yanında oldu, 2003-cü ildə önə buraxdığı Etibar Məmmədovun yanında oldu, sonra İbrahimbəyovun yanına düşdü, 2015-ci ildə Cəmil müəllimi qabağa buraxaraq onun "ikincisi" oldu, bundan sonra bir dönəm də Mübariz Mənsimovun yanında ikinci olmaqla nə itiriləcək ki?! Üstəlik, Mübariz Mənsimova parlaq görüntüsü mahiyyətindən çox-çox böyük olan bir siyasi təşkilat bəxş etməyin "maddi qarşılığı" da olacaq.

Əli Kərimli üçün "olacaq" çox şeylər var hələ... Tək siyasi perspektivdən başqa... Çünki siyasətdə uzun və mənasız yaşayacağının ona açıq deyildiyi 2005-ci ilin konkret söhbətlərindən lazımi nəticələr çıxarmaq istəmədiyi üçün indi hər şeyin gec olduğu məqama yetişib...

Necə deyərlər, "ciyərə qane olmayan pişiyin qənarədən asılması" hökmü-taledir...

---

# Gürcüstanda azərbaycanlılara sərinləşən münasibətin kökü - "ilmə" ermənilərdən gəlir...

**Azərbaycanın Ermənistan istisna olmaqla özü ilə həmsərhəd olan ölkələrin hamısı ilə münasibətləri çox normaldır. Ermənistan isə işğalçı siyasəti ilə özünü belə münasibətlərdən təcrid etmiş olub. Bununla yanaşı, Ermənistan hər vəchlə Azərbaycanın qonşu ölkələrlə münasibətlərini pozmağa çalışır. Belə ölkələrdən biri də Gürcüstandır.**



***Kamran Ramazanlı:** "1950-ci ildən indiyə kimi Gürcüstanda 100 mindən çox erməni gürcü familiyasına keçib"*

Ermənistan həm özünün yürütdüyü dövlət siyasəti vasitəsilə, həm də Gürcüstanda yaşayan ermənilərin köməyilə iki ölkə arasındakı mehriban münasibətlərə maksimum xələl gətirməyə çalışır. Artıq Gürcüstana səfər edən soydaşlarımız bunun ilkin rüşeymlərini hiss etməyə başlayıblar. Məsələn, bu il Gürcüstanda yay istirahətini keçirən bir çox soydaşımızın həmin ölkədəki münasibətdən gileyləndiyinin şahidi oluruq. Bu qəbildən olan vətəndaşlarımızla söhbət zamanı onlar deyirlər ki, ötən illər belə tendensiya müşahidə edilmirdi: "Bu il bizdən daha çox pul qoparmağa çalışırlar. Getdiyimiz yerlərdə yaxşı xidmət etmirlər. Biləndə ki, Azərbaycandan gəlmişik, çox sərt rəftar edirlər". Bunu əsasən Tiflisdə yox, Batumidə, Qara dənizin sahilində istirahət etmiş soydaşlarımız müşahidə ediblər.

Gürcüstanın yerli vətəndaşları ilə söhbət zamanı məlum oldu ki, belə tendensiyalar müşahidə olunsa da, heç də Gürcüstan dövlətinin yürütdüyü siyasətlə bağlı deyil: "Bəziləri bunu Keşikçidağ hadisəsi ilə əlaqələndirməyə çalışır, amma kökündən yanlışdır. Bunun başlıca səbəbi Batumi və digər kurort şəhərlərindəki ictimai iaşə və xidmət sektorunun kütləvi şəkildə ermənilərin əlində cəmləşməsidir". Araşdırmalarımız zamanı bu fakt özünün tam təsdiqini tapdı. Gürcüstan əsilli tanınmış ictimai fəal Kamran Ramazanlı qəzetimizə bildirdi ki, Gürcüstan-Azərbaycan münasibətlərində bəzi xoşagəlməz hallar müşahidə olundu: "Bu heç də o demək deyil ki, dövlətlər arasındakı münasibətlər gərgindir. Xoşagəlməz hal kimi Gürcüstanda Qarabağda öldürülən erməni əsilli bir şəxsə büstün qoyulmasını və Keşikçidağda baş verən anlaşılmazlığı aid edə bilərik. Hiss olunurdu ki, hər iki prosesi qızışdırmaqda maraqlı olan üçüncü tərəf var. Bu da ermənilərdir. Onlar düşündürücü şəkildə iki ölkə arasındakı münasibətləri pozmaq istəyirlər. Bizdə də dediyiniz qəbildən olan məlumatlar var ki, kurort şəhərlərində erməni əsilli iş adamları kütləvi şəkildə xidmət sahələrini ələ keçirirlər. Proseslər birbaşa Ermənistandan idarə edilir. Bir faktı deyim. 1950-ci ildən indiyə kimi Gürcüstanda 100 mindən çox erməni gürcü familiyasına keçib.

*"Soyadlarını gürcüləşdirmiş ermənilərin böyük əksəriyyəti mühüm postlarda çalışır"*

**Onların heç erməni olduğunu bilmək də mümkün deyil. Belələri lap ciddi təhlükə mənbəyidir. Soyadlarını gürcüləşdirmiş ermənilərin böyük əksəriyyəti mühüm postlarda çalışır. Bütün bunlar təsadüfi məsələlər deyil. Çox sağ olun ki, belə incə məqamlara toxunursunuz. Bu cür mövzuları ictimailəşdirmək lazımdır ki, Gürcüstan hökuməti xəbərdar olub, müvafiq tədbirlər görsün. Əks halda vəziyyət daha da pisləşəcək".**

***Məhəmmədəli QƏRİBLİ***

**Hələ tam şəkildə hazır olmasa da, Azərbaycanın qoşulduğu bir sıra nəqliyyat dəhlizləri ölkəmizə indidən böyük həcmdə gəlir gətirməyə başlayıb. Söhbət ilk olaraq "Şimal-Cənub", "Şimal-Qərb" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərindən gedir.**

# Nəqliyyat dəhlizləri hesabına Azərbaycanın geosiyasi mövqeləri güclənir

Qeyd edək ki, təkcə cari ilin yanvar-iyun aylarında "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmi 63 faiz artıb. Ümumiyyətlə, 2019-cu ilin ilk 6 ayında ölkə ərazisindən 4,1 milyon ton tranzit yük daşınıb. Bu dövr ərzində "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmində 63 faiz artım müşahidə olunub. "Şimal-Qərb" və "Şərq-Qərb" nəqliyyat dəhlizləri üzrə daşınan yüklərin həcmində də əhəmiyyətli dərəcədə artım qeydə alınıb. Belə ki, yanvar-iyun aylarında "Şimal-Qərb" nəqliyyat dəhlizi ilə daşınan ümumi tranzit yükün həcmi 70 faiz artaraq 829 min ton təşkil edib. "Şərq-Qərb" nəqliyyat dəhlizi ilə daşınan qeyri-neft məhsullarının həcmi isə 42,8 faiz artaraq 795 min ton olub. Bu dəhlizlər, xüsusən də "Şimal-Cənub" işə düşdükdən sonra yükdışmalar Azərbaycana kifayət qədər böyük həcmdə pul qazandıracaq. Onu da bildirək ki, "Şimal-Cənub" dəhlizi Hindistan və Cənubi-Şərqi Asiya ölkələrindən gələn yüklərin İranın Bəndər-Abbas limanından Azərbaycan üzərindən daşınmasını təmin edəcək. Bu marşrut üzrə ildə 10-15 milyon ton yük daşınması planlaşdırılır və Azərbaycan tranzitdən çox böyük gəlirlər əldə edə bilər. Bu dəhlizlə Cənub-Şərqi Asiyadan Avropaya yüklərin daşınması 10-15 faiz ucuz başa gələcək. Yüklərin Süveyş kanalı vasitəsilə daşınmasından 800 kilometr daha az məsafə qət ediləcək. Eyni zamanda, daşıma müddəti 20 gün azalacaq. Finlandiyanın dəhlizə qoşulması isə nəqliyyat dəhlizinin potensialını daha da gücləndirəcək. Bu baxımdan Azərbaycan üçün "Şimal-Cənub" nəqliyyat dəhlizinin əhəmiyyəti artır. Dəhlizin tam işə düşməsi üçün isə Astara-Rəşt-Qəzvin dəmir yolunun tam hazır olması lazımdır. Bu istiqamətdə intensiv iş gedir. İran qeyd edilən istiqamətdə Azərbaycanla işbirliyini daha da gücləndirir. İran Dəmir Yollarının prezidenti və idarə heyətinin sədri Səid Rəsuli bu xüsusda vurğulayır ki, İranla Azərbaycanın dəmir yolları arasında faydalı əməkdaşlıq əlaqələri mövcuddur. O, ötən ay Bakıya etdiyi səfəri xatırladaraq bildirib ki, "Azərbaycan Dəmir Yolları" QSC İran Astarasında infrastruktur layihələrin həyata keçirilməsində iştirak edir. QSC Astarada dəmir yolu vağzalının və yük terminalının tikintisini davam etdirir.

S.Rəsuli qeyd edib ki, Azərbaycan "Şimal-Cənub" dəhlizinin də tam olaraq formalaşmasında fəallıq göstərir: "Bu əməkdaşlıq nəticəsində İranla Azərbaycanın sərhədyanı bölgələri iqtisadi inkişafa qovuşacaq. Hər iki tərəfdə minlərlə iş yeri yaradılıb ki, bu da əhalinin sosial rifah halının yaxşılaşmasına xidmət edir". S.Rəsuli nəzərə çatdırıb ki, məhz İranla Azərbaycanın dəmir yolu sahəsində əməkdaşlığı nəticəsində Asiya ilə Avropa dəmir yolu nəqliyyatı baxımından birləşəcək. Asiya ölkələri Avropaya, Avropa ölkələri isə Fars körfəzi sahillərinə və Cənub Şərqi Asiyaya çıxış əldə edəcək. Bu isə hər iki qitənin ticarət və iqtisadiyyatının inkişafına böyük təkan verəcək. İranın iqtisadi işlər və maliyyə naziri Fərhad Dejpəsənd də qeyd edir ki, "Şimal-Cənub" mühüm əhəmiyyətə malikdir və bu prosesdə Azərbaycanın rolu olduqca yüksəkdir. O vurğulayıb ki, "Şimal-Cənub" dəhlizinin əsas komponenti olan Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolunun çəkilişi davam edir. Bu yolun Qəzvin-Rəşt hissəsi istismara buraxılıb. Rəşt-Astara hissəsində isə işlər davam edir. Onun sözlərinə görə, qarşıdakı iki ildə Rəşt-Astara yolunun tikintisi başa çatacaq və İranla Azərbaycanın dəmir yolları sistemləri birləşəcək. Bu dəmir yolunun istifadəyə verilməsi ilə hər iki ölkənin qeyri-neft sektorunun inkişafına əsaslı təkan veriləcək.

Rusiya Dövlət Dumasının deputatı Dmitri Savelyev isə "Şimal-Cənub"un bütün dünya üçün mühüm əhəmiyyət kəsb etdyini, ölkəsinin Azərbaycanın tranzit potensialından istfiadə edərək dünya bazarlarına daha çox yük çıxarmaq niyyətində olduğunu vurğulayır: "Rusiya, Azərbaycan və İran "Şimal-Cənub" nəqliyyat dəhlizi boyu sənaye istehsalının klasterlərini yaratmağa imkan verəcək yeni imkanlar əldə edəcəklər. Bunun nəticəsində isə iqtisadi əməkdaşlıq daha da güclənəcək. "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi bütün tərəflər üçün sərfəlidir. Lakin Rusiyadan Aralıq dənizindəki Mersin limanınadək daşımalar da bizim ölkəmiz üçün yaxşı perspektivlər açacaq. Çünki Rusiya iqtisadiyyatı üçün Avropaya yükdaşımaların marşrutların diversifikasiyası böyük maraq kəsb edir. Rusiyanın yükdaşımalarının 80 faizi Türkiyə ərazisinə dənizlə həyata keçirilir. Qalanları isə avtomobil nəqliyyatı vasitəsilə reallaşdırılır. Amma indiyədək dəmiryolu ilə yükdaşımaları olmayıb. Lakin Azərbaycanın sayəsində sentyabr ayında bu marşrutla da yüklər daşınacaq və yaxın iki il ərzində yükdaşımaların həcmini 500 min tona çatdırmaq mümkün olacaq. Azərbaycanın nəqliyyat infrastrukturu bütün maraqlı ölkələrə böyük tranzit imkanları yaradır".




**Onu da vurğulayaq ki, "Şimal-Cənub" dəhlizi həm də çox mühüm geosiyasi layihədir və Cənubi Qafqaz regionunda, Xəzər bölgəsində Azərbaycanın mövqelərinin möhkəmləndirilməsi üçün yeni imkanlar açır. Geosiyasi risqərin getdikcə artdığı qlobal miqyasda qarşıdurma meyllərinin güclənməsi fonunda "Şimal-Cənub" kimi layihələr Azərbaycanın sabit məcrada inkişafına yeni təminatlar yarada biləcək potensiala da malikdir. Digər tərəfdən, "Şimal-Cənub" Ermənistanın beynəlxalq nəqliyyat dəhlizləri ilə bağlı planlarının üzərindən xətt çəkir. Belə ki, Ermənistan da analoji layihələrin onun ərazisindən keçməsini istəsə də, artıq bu məsələdə tam şəkildə Azərbaycana uduzub.**

***Nahid SALAYEV***

# Söz haqqı...

## *Millətin öz yeri, dinin öz yeri...*

*(esse)*

**Sadə kütlənin yanlışı arzuedilən olmasa da, ittiham edilməli də deyil. Ancaq ziyalı zümrənin səhvi iradlara açıqdır. Müstəqilliyin ilk illərindən etibarən ölkə ziyalıları orientir seçməkdə tərəqqi ilə tənəzzül arasında qalmışdı. Və paradoks yarandı: əksər ziyalılar kütləyə qoşulub geri qayıtdılar. Az qism mütərəqqini seçdi.**



**Akif ƏLİ,**
*Yazıçı-publisist, fəlsəfə doktoru*

Vətənin şanlı tarixini yaxşı bilməyən, öyrənmək həvəsində də olmayan "dəyirmanda oturanlar" dövlətin müstəqilliyindən daha çox dini müstəqilliyə şükr oxudu. Bütün milli-mənəvi dəyərlərimizi, ədəbi-bədii, elmi-fəlsəfi düşüncə nailiyyətlərimizi din pərdəsi altında, İslamın uğurları çərçivəsində izah etməyə, yazmağa, yaymağa, hətta canfəşanlıqla təkid etməyə başladılar. Allahın əvəzinə hökm çıxaranlar, peyğəmbərin əvəzinə təfsir verənlər, daşın-divarın, heyvan və bitkilərin üzərində "əski əlifba ilə yazılmış ayə" axtaranlar, "Boinq"də oturub şalvar balağının hündürlüyünü ölçənlər, saunada araq içə-içə qadın başörtüyünün dolağını sayanlar və s. "problematikanı" dartışanlar həqiqətən Allahın "möcüzəsidir".

Söhbət, təbii ki, İslamın, ya başqa bir dinin yaxşı-pisliyindən getmir. Sözümüz din haqqında yox, dini savadsızlıq haqqındadır. Din-din deyib dinin mahiyyətini anlamadan din pərdəsi altında manipulyasiya edən"diplomlu savadsızlar" haqqında... Bəzən görürsən bir səlahiyyət sahibi, guya ölkəmizin özəlliyini izah edirmiş kimi, - "Bilirsiniz, biz müsəlman dövlətiyik..." - deyir. Dərhal bilinir ki, adamın nə Dövlət anlayışından, nə Millət anlayışından, nə Konstitusiyadan, nə Dindən, nə də elementar məntiqdən xəbəri var. Rəsul Rza demişkən, "zato" dövlətdən maaş alır... Aludəçilik bəzən elə absurd həddə çatır ki, birisi hətta ərəb işğalından əvvəlki tarixə aid hadisələrdən, şəxslərdən danışanda onları "bu taya" gətirib "müsəlmanlaşdırdığının" fərqinə varmır. Eynən onun da fərqinə vara bilmir ki, öz fanatikliyi ilə yad dəyirmanına su tökmədədir.

Əslində guya "dini" - təqdir, "işığı" - təmsil edən belə ziyalılar Orta əsrlərə xas xurafata qapanıb qalmaqla əslini danlardan olurlar. Bunlar Cümhuriyyətin görkəmli şəxsiyyətlərindən Nağı bəy Şeyxzamanlının dediyi, -"Şanlı keçmişindən fəxarət duyulan Azərbaycan ölkəsi"nin keçmişini yeddinci əsrdən o tərəfə keçirə bilməyən dərrakə sahibləridir. Sanki ondan o tərəfdə Azərbaycan və Azərbaycan tarixi olmayıb. Sanki o tərəfdə milli-mənəvi dəyərlərimiz, ədəbi-bədii, elmi-fəlsəfi düşüncə nailiyyətlərimiz olmayıb. Sanki xalqın tərəqqisi naminə qaragüruha qarşı dini mövhumatla çarpışmalarda can qoymuş Babək, İ.Nəsimi, M.F.Axundzadə, S.Ə.Şirvani, H.B.Zərdabi, M.Ə.Sabir, M.Cəlil, Üz.Hacıbəyli, Ə.Haqverdiyev, C.Cabbarlı, N.Nərimanov olmayıblar...

Əlbəttə, mürtəce meyllərin ilk və başlıca səbəbi savadla, biliklə bağlıdır. Savad, bilik olmayan yerdə xurafat baş qaldırar. Tarixi bilgisizlikdə Sovet dövrü tarixşünaslığının da "əməyi"var. Belə ki, dəmir akvariumda ümumi "Sovet xalqı"yetişdirmək hikkəsi yeridən eksperimental rejim xurafata qarşı haqlı olaraq nə qədər kəskin, effektiv mübarizə aparırdısa, ayrı-ayrı xalqların tarixinə, soykökünə, milli kimlik məsələsinə qarşı da eyni əzmlə inkarçılıq mövqeyi göstərirdi. Heç bir elmi əsası olmadan, yalnız konyu ktur mülahizələr zəminində Azərbaycan tarixinin və mədəniyyətinin 1920-ci ildən başladığı kimi absurd tezislər yürüdən yadların qulluğundakı milli acizlərdə qədim dövr tariximizi obyektiv araşdırmaqdan qaçıblar. Heydər Hüseynov, Ziya Bünyadov kimi əsl Qəhrəman alimlər (təbii ki, onların sayı daha artıq idi, ancaq mən bu görkəmli şəxsiyyətlərin adını yalnız nümunə kimi çəkirəm) tariximizin müəyyən dövrlərini olduğu kimi yazsalar da, hədsiz dərəcədə zəngin olan vətən tarixinin qatlarını açmaq, daxildə və xaricdə mövcud olan minlərlə əlyazmaları, xəritələri, salnamələri, digər tarixi sənədləri axtarıb tapmaq, öyrənmək, tədqiq etmək, araşdırmaq üçün bu say əlbəttə, kifayət etməzdi. Xüsusən, daha çox boşluqları olan eradan əvvəlki dövrü obyektiv, hərtərəfli işıqlandıran tədqiqatçılara ehtiyac vardı. Çünki Böyük Azərbaycanın dövlətçilik tarixini, mədəniyyət tarixini araşdırmaq, görkəmli şəxsiyyətləri tapıb üzə çıxartmaq, mürəkkəb hadisələrin dolğun, dəqiq mənzərəsini yaratmaq üçün böyük də elmi potensial gərəkdir. Bir vaxtlar 400 min kvadrat kilometrlik ərazisi olan, sonra davamlı istilaların küncə sıxışdırdığı Azərbaycan torpağında mövcud olmuş bütün qədim dövlətlərin, bəyliklərin, xanlıqların, sultanlıqların hamısını tapmaq, öyrənmək, dünyanın dörd bir tərəfində böyüklü-kiçikli muzeylərə, kolleksiyalara səpələnmiş dəlil-sübutları, sənədləri, arxiv materiallarını yığıb-yığışdırmaq asan iş deyildi. Bunun üçün fars, rus, alman, ingilis, fransız, ərəb dillərini bilən peşəkar mütəxəssislər hazırlamaq lazım idi. İstilalar zamanı ölkəmizdə təkcə var-dövlət, qızıl-gümüş, bağ-bağat yağmalanmayıb, həm də mədəniyyət abidələri, kitablar, əlyazmalar daşınıb aparılıb (ərəb, monqol, rus, bolşevik işğallarından sonra bu gün də ermənilər eyni talanı davam etdirirlər).Odur ki, Ərəb, Rusiya, İran, eləcə də çarın canişini əyləşən Gürcüstan arxivlərində, digər xarici ölkələrin arxiv və muzeylərində Azərbaycan tarixi ilə bağlı nə qədər qatı açılmamış materiallar yatır. Əsrlər boyu yığılıb qalmış bu nəhəng mənbələri alimlərimiz yalnız dövlətin dəstəyi və himayəsi ilə axtarıb, tapıb gerçək tariximizin tədqiqinə cəlb edə bilərdilər. Müxtəlif dövlət-hökumət qurumlarının, Elmlər Akademiyasının müvafiq elmi-tədqiqat institutlarının, universitet rəhbərlərinin diqqəti bu sahələrə yönəltməsi, beş-on nəfərin yox, bəlkə də yüzlərlə tədqiqatçının müxtəlif profillər üzrə hazırlanması, işə cəlb edilməsi, istiqamətləndirilməsi, stimullaşdırılması xalqın mənafeyi baxımından zəruridir.

Ancaq heyhat... 1920-ci ildən 1990-cı illərədək bu sahədə işlər, bir adam demişkən, "dondurulub". Qədim dövrün tədqiqatını öz monopoliyasında saxlayan konyunkturçu akademislərin gözü Kompartiya ideoloqlarının ağzına baxıb və tariximizi olduğu kimi yazmağa öz "ağzının cəsarəti" çatmayıb. Qədim tariximizi öyrənməyə cəsarəti çatmayanlar qəzet, televiziya, radio materallarını köçürüb özlərinə elmi iş düzəldir, ad-san qazanırdılar (heç də şişirtmirəm, şəxsən mən tele-radio verilişlərimin ssenari mətnləri üzrə elmi iş, kitab, məqalə yazanları tanıyırdım). Biz sözlə, ən mühüm hadisələrin tədqiqatdan kənarda qalması nəticəsində həm elmi ictimaiyyət arasında dövr edən, həm də orta və ali məktəblərdə kütləvi tədris edilən şanlı keçmişimizin mənzərəsi təhrifli, yarımçıq, maraqsız süjetlərlə dolub və asta-asta unudulub...Bu səbəbdən müstəqillikdən sonrakı dövrdə bəzi ziyalıların orientir tərəddüdləri üçün bəlkə də hardasa bəhanə var.

Ancaq nadancasına xurafat girdabına yuvarlanmanın bir ayrı səbəbi də olub. Sovetlərdən qurtulub yeni müstəqillik əldə etmiş ölkənin kommunizmdən fərqli öz ideologiyasının yaradılmaması. Qafqazda yerli xalq olan türkdilli Azərbaycan oğuzlarının qədim milli-mədəni, əxlaqi dəyərləri, qədim tarixi, qədim dini, qədim dövlətçiliyi, görkəmli şəxsiyyətləri göz önünə alınmaqla dərhal hazırlanmalı olan bu cür milli ideologiya bütün ictimai-siyasi, hüquqi, iqtisadi, hətta hərbi quruculuq işlərindən də öndə getməli idi. Bu ideologiyanın elmi-nəzəri bazası üçün həm klassik ədəbi-fəlsəfi fikir nümayəndələrinin, həm fəaliyyəti bolşeviklər tərəfindən yarımçıq kəsilmiş milli hökumətin - Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin, həm də öz vicdanlı alimlərimizin əsərləri ən yaxşı örnəkdir. Təəssüf ki, xalqın böyük inam bəslədiyi növbəti milli hökumət, - AXC-Müsavat hakimiyyəti bu əlverişli fürsəti dəyərləndirə bilmədi, iş təşkil olunmadı. Əksinə, o dövrdə yanlış olaraq ictimai fikrə ideologiyanın kommunizm mirası olduğu yeridildi ki, bu da savadsızlıqdan irəli gəlirdi...

Qısaca tezislər şəklində nəzər yetirdiyimiz səbəblər üzündən tarix elmimiz - eyni qaydada cəmiyyətimiz,xüsusən gənclərimiz, - müstəqillik dönəminə öz qədimliyindən, demək olar ki, bixəbər halda gəlib çıxdı. Artıq o qədim dövrü yenidən öyrənmək, araşdırmaq üçün yaşlı nəslin vaxtı, gənclərin isə həvəsi qalmamışdı. Beləcə, danışmaq lazım olanda hərə öz bildiyi səviyyədə danışıb mülahizə yürüdür, iddia bildirirdi ki, nəticədə zərbə - "Vətən, vətən, sənə dəydi"!

***

Haşiyə: Hörmətli oxucu düşünməsin ki, bunları indi dilə gətirməklə, mən də "təpik altında" qalanlara"fürsətdən istifadə edərək" irad bildirirəm. Əsla! Tanıyanlar bilir. Mən həmişə sözümü zamanında demişəm. Sözügedən məsələ barədə də Milli hakimiyyətin lap ilk günlərində - hələ 1992-ci ildə Milli Məclisin sədri ilə görüşdə təklifimi vermişəm. Və o görüş təsadüfi, ayaqüstü, tədbirlərarası qısa fasilələrdə olmayıb ki, aradan bu qədər vaxt keçəndən sonra kimsə buna "uydurma" desin. Sözümü rəsmi protokol görüşündə demişəm.

...1992-ci ilin mayında həm də qaçqınların kütləvi axını ilə Ali Sovetə doğru əzəmətli yürüş təşkil edən elçibəyçilər hakimiyyəti ələ aldıqdan az sonra bütün ictimai-siyasi proseslərin fəal iştirakçısı olan qaçqınların təmsilçisi - Azərbaycan Qaçqınlar Cəmiyyəti (AQC) İH-nin nümayəndələri bir sıra təkliflərlə hakimiyyətlə görüşə getdi. Mən də AQC-nin orqanı olan "Vətən səsi" qəzetinin Baş redaktoru kimi nümayəndə heyətinin tərkibində idim. Görüş Prezident Aparatında, Elçibəyin seçkisinə qədər Prezident səlahiyyətlərini icra edən Ali Sovetin sədri İsa Qəmbərlə keçirilirdi. AQC İH-nin nümayəndələri Niftalı Qocayev, Abbas Səfərov, Həsən Balıyev, Həsən Mirzəyev və b. çıxış edərək qaçqınların problemlərinin həlli istiqamətində ölkə rəhbərliyinə dəyərli təkliflər verdilər. Yeni hökumətin rəsmiləri hamıya çox diqqətlə qulaq asır,qeydlər aparırdılar...Təbii, sonralar hamısı unuduldu getdi, heç nə icra olunmadı. Ancaq sözüm onda deyil.

***(Ardı növbəti sayımızda)***

# Aqrar Sığorta Fondu kənd təsərrüfatımızın hansı problemlərini sığortalayacaq...

**Aqrar sahənin inkişaf etdirilməsi istiqamətində dövlət tərəfindən çoxşaxəli işlər görülür. Uzun müddət idi ki, kənd təsərrüfatı mütəxəssisləri ölkəmizdə aqrar sığorta fondunun yaradılması məsələsini gündəmə gətirirdilər. Bunun da əsas səbəbi təbii fəlakət və gözlənilməz hadisələr zamanı kənd təsərrüfatının müxtəlif sahələrinə dəyən zərərin dövlət tərəfindən ödənilməsi ilə bağlı idi.**




***Qadir Bayramlı:** ”Prezidentin fərmanı ilə Aqrar Sığorta Fondunun yaradılmasını kənd təsərrüfatı sahəsində atılan önəmli bir addım kimi qiymətləndirmək olar”*

Bildiyimiz kimi, Prezident İlham Əliyev "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli, 1617-VQ nömrəli Qanununun tətbiqi və Aqrar Sığorta Fondunun yaradılması barədə Fərman imzalayıb.

Fərmana əsasən, "Aqrar sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasında aqrar sığorta sisteminin təşkilini, inkişafını və dayanıqlığını, habelə idarəedici qurumun formalaşdırılmasını təmin edən və onun fəaliyyətinə nəzarəti həyata keçirən "Aqrar Sığorta Fondu" qeyri-kommersiya hüquqi şəxsi (bundan sonra - Fond) yaradılır.

Azərbaycan Prezidentinin Aqrar Sığorta Fondunun yaradılması ilə bağlı imzaladığı fərmanı şərh edən tanınmış kənd təsərrüfatı mütəxəssisi Qadir Bayramlı "Bakı-Xəbər"ə bildirdi ki, bu fondun yaradılmasının böyük əhəmiyyəti və faydası olacaq. Ölkəmizdə belə bir fondun yaradılmasına ciddi ehtiyac olduğunu deyən Q.Bayramlı hesab edir ki, Aqrar Sığorta Fondu fəaliyyətə başladıqdan sonra aqrar sahədə mövcud olan problemlər tədricən aradan qaldırılacaq. "Ölkəmizdə Aqrar Sığorta Fondunun yaradılması məsələsini kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən ekspertlər dəfələrlə gündəmə gətiriblər. Bu fondun yaradılması kənd təsərrüfatı sahəsində, eləcə də fermerlər üçün həyatı əhəmiyyət daşıyan məsələlərdən biridir. Bilirsiniz, bizim ölkədə sığorta sahəsi zəif inkişaf edib. Ümumiyyətlə, sığorta məsələsi kənd təsərrüfatı sahəsində də olduqca zəifdir. Sığortanın zəif olmasının səbəbləri müxtəlifdir. İlk növbədə xalqın sığortaya inamı azdır. Digər tərəfdən, sığorta məsələsində maarifləndirmə işi çox aşağı səviyyədədir. Yəni sığorta və onun əhəmiyyəti haqqında camaatın yetərli bilgisi yoxdur. Ancaq inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə fermerlər, kənd təsərrüfatı ilə məşğul olanlar sığortaya çox əhəmiyyətli baxırlar, həvəslə öz məhsullarını sığorta etdirirlər, dövlət də bu işi təşkil edir. Bizdə sığorta anlayışı yeni olduğu üçün, xalqda bununla bağlı kifayət qədər aydın təsəvvür yoxdur. Artıq Azərbaycan dövləti aqrar sığorta maarifçiliyi sahəsində addımlar atır. Nəticələrdən gözləntilər odur ki, bu sahədə irəliləyişlər olacaq. Bizə aqrar sığorta nə üçün lazımdır? Məsələ ondadır ki, fermerlər min bir əziyyətlə məhsul yetişdirirlər. Hansısa təbii fəlakət baş verəndə onların məhsulları zay olur. Yaxud anormal iqlim şəraitində də həmçinin. Heyvandarlıq, bitkiçilik və sair sahələrdə müxtəlif xəstəliklər nəticəsində insanların zəhməti hədər gedir. Yəni insanlar min zəhmətlə, hətta kredit götürərək yetişdirdiyi məhsulun zay olması üzündən bu sahədə çalışanlar heç bir mənfəət, gəlir götürə bilmirlər. Aqrar sığortası olmadığı üçün isə fermerlərin, kənd təsərrüfatı ilə məşğul olanların çəkdikləri xərclər ödənilmir. Aqrar sığorta tətbiq edildiyi halda fermerlər güvəndə olacaq. Hər hansı bir təbii hadisə və sair zamanı onların məhsulları zay olacaqsa, artıq onların güvəndikləri yer olacaq. Bunun üçün fermerlər aqrar sığortaya maraq göstərməlidirlər".

*”Bu fond kənd təsərrüfatının bütün sahələrini əhatə edəcək”*

Q.Bayramlı hesab edir ki, fermerləri aqrar sığortanın faydası barədə maarifləndirməyə ciddi ehtiyac var. O hesab edir ki, insanlar sığorta ilə maraqlanmalı və anlamalıdırlar ki, bu onlara dəyən zərərin ödənilməsi deməkdir. "Prezidentin fərmanı ilə Aqrar Sığorta Fondunun yaradılmasını kənd təsərrüfatı sahəsində atılan önəmli bir addım kimi qiymətləndirmək olar. Bu fond kənd təsərrüfatının bütün sahələrini əhatə edəcək. Ancaq bu, aqrar sığorta məsələsinin yerlərdə necə icra olunmasından asılı olacaq. Fikrimcə, aqrar sığortanın əhəmiyyəti müxtəlif videoçarxlar, eləcə də KİV vasitəsilə geniş təbliğ edilməlidir. O sığortadan faydalanan insanların özlərinin də çıxış etməsi, bu sahəni təbliğ etməsi lazımdır ki, digərləri də aqrar sığortaya meyl göstərsinlər. Bu fondun yaradılması olduqca müsbət addımdır. Lakin bunun nə kimi səmərə verəcəyi isə işlərin həyata keçirilməsindən asılı olacaq. Əgər sistemli halda, davamlı həyata keçiriləcəksə və maarifləndirmə aparılacaqsa, bu məsələdən biz müsbət nəticələr gözləyə bilərik" - deyə Q.Bayramlı vurğuladı.

***İradə SARIYEVA***

# Bakının kənd-qəsəbə yollarını Prezident proqrama saldı, ancaq məmurlar unudub...

**Bakıətrafı kənd və qəsəbələrin əksəriyyətində məhəllədaxili yolların acınacaqlı vəziyyətdə olduğu məlumdur. Yayda bu yollarda toz əlindən tərpənmək olmur. Yollar elə bərbad gündədir ki, inanmaq olmur Bakının bir neçə kilometrliyində belə yollar var. İstənilən fasildə bu yollarda hərəkət edən avtomobillər ciddi texniki problemlərlə üzləşirlər.**



***Məhərrəm Zülfüqarlı:** ”Bu, bəzi məmurların məsuliyyətsizliyindən irəli gəlir”*

Payız-qış aylarında bu kənd və qəsəbələrdə yaşayanlar, o cümlədən, yeni salınmış yaşayış məhəllələrinin sakinləri dərin gölməçələrdən, az qala dizə çıxan palçıqdan əziyyət çəkməli olurlar.

Bakıətrafı kənd və qəsəbələrin çoxunda məhəllədaxili yolların vəziyyəti ötən illərdə xeyli asfalt işlərinin görülməsinə baxmayaraq, əsasən bərbad olaraq qalır. Ya görürsən ki, asfalt örtüyü yaxşı salınmayıb, ya da heç ümumiyyətlə yol asfalt deyil. Sakinlər məhdud imkanları hesabına yola çınqıl tökürlər ki, bunun da ömrü çox olmur. İritonnajlı avtomobillərin intensiv hərəkəti kənd və qəsəbədaxili yolların daha da bərbad günə düşməsinə gətirib çıxarır. Xüsusən də Masazır, Binə, Bülbülə, Buzovna, Hövsan, Ramana və digər qəsəbələrdə məhəllədaxili yollar bərbaddır. Bağ mövsümü ilə əlaqədar Masazırda qalan paytaxt sakinləri yollardan çox əziyyət çəkirlər.

Onu da qeyd edək ki, Prezident İlham Əliyev Bakıətrafı kənd və qəsəbələrin yol infrastrukturunun yaxşılaşdırılmasını Dövlət Proqramına daxil edib. Bir sıra görüşlərdə sözügedən yolların asfaltlaşdırılmasını qaldırıb. Ancaq belə görünür ki, müvafiq qurumlar və buna cavabdeh olan məmurlar bu işləri görməkdə qərarlı deyillər. Nə icra orqanları, nə bələdiyyələr, nə də digər qurumlar bununla məşğul olurlar. Belə olmasaydı, Bakıətrafı kənd və qəsəbələrin yolları bərbad vəziyyətdə olmazdı.

Məsələ ilə əlaqədar Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi ilə əlaqə saxlamağa çalışsaq da, təəssüf ki, buna cavab verən olmadı.

Sözügedən məsələni dəyərləndirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlı hesab edir ki, bu, bəzi məmurların məsuliyyətsizliyindən irəli gəlir: "Həqiqətən də bu problem var. Düzdür, son illər ölkədə yol infrastrukturunun inkişaf etdirilməsi ilə bağlı bir sıra işlər görülüb. Paytaxtda və bölgələrdə yeni yollar, yol ötürücüləri salınıb. Müasir yol infrastrukturu qurulub. Bütün bunlar öz yerində. Ancaq bunu Bakıətrafı kənd və qəsəbələrin yollarına aid etmək mümkün deyil. Ona görə ki, bu sahədə vəziyyəd çox acınacaqlıdır. Çünki bu yollara baxan yoxdur. Bələdiyyələrin imkanları məhdud olduğuna görə bu məsələnin öhdəsindən gəlmək gücündə deyillər.

*”Təəssüflər olsun ki, icra orqanları və bu sahə ilə məşğul olan digər qurumlar bu işə səhlənkar yanaşırlar”*

Bu ancaq dövlət vəsaiti hesabına həll edilməlidir. Ancaq təəssüflər olsun ki, icra orqanları və bu sahə ilə məşğul olan digər qurumlar bu işə səhlənkar yanaşırlar.

Əhalinin artması, qəsəbədaxili yolların düzəldilməməsi bu sahədə problemlərin artmasına rəvac verir. Ona görə də hesab edirəm ki, bununla bağlı nəzarət tədbirləri gücləndirilməlidir. Vəzifəsinin öhdəsindən gələ bilməyənlər işdən azad edilməlidirlər. Məmurlar Prezidentin bununla bağlı tapşırıqlarını icra etməlidirlər. Çünki bu onların borcudur".

***Vidadi ORDAHALLI***

"Moody's" beynəlxalq reytinq agentliyi Azərbaycanda islam bankçılığının inkişaf potensialının aşağı olduğunu qeyd edir. Bu barədə yayılan məlumata görə, "Moody's" mütəxəssisləri MDB ölkələrində İslam bankçılığının inkişaf perspektivləri barədə hesabatda bildirirlər ki, müsəlman əhalisinin çoxluğuna baxmayaraq, Azərbaycanda islam bankçılığının inkişaf perspektivləri zəifdir.

# Azərbaycan haqda beynəlxalq təşkilatın qəribə rəyi - müsəlman ölkəsində zəif islam bankçılığı...

*"Hesab edirəm ki, bu sahədə narahatlığa elə bir əsas yoxdur"*




Agentliyin analitiklərinin fikrincə, Azərbaycan hökuməti hazırda islam bankçılığının inkişafını planlaşdırmır. Bunu onunla əsaslandırırlar ki, hökumətin diqqəti dünyəvi dövlətin və iqtisadiyyatın yaradılmasına köklənib: "Azərbaycan Beynəlxalq Bankı "islam pəncərəsini" bağlayıb və ölkədə ixtisaslaşdırılmış islam bankı artıq yoxdur. 2018-ci ildə ölkə islam maliyyələşdirməsi üzrə qanunvericiliyin hazırlanmasında texniki köməyə dair İslam İnkişaf Bankı ilə razılaşma imzalanıb, lakin sektorun inkişafına qətiyyətli dövlət müdaxiləsi olmadan onun artması məhdud olacaq".

Onu da qeyd edək ki, İslam İnkişaf Bankı 1991-2018-ci illərdə Azərbaycana 1,387 milyard dollarlıq kredit ayırıb. İslam bankçılığının inkişaf etdirilməsi ilə bağlı bir sıra təşəbbüslər göstərilsə də, nədənsə bu yöndə arzuolunan nəticə əldə olunmayıb.

Maraqlıdır, ölkədə islam bankçılığının inkişaf potensialı niyə zəifdir? Bu yöndə "Moody's"in hesabatını ekspertlər necə dəyərləndirir?

Məsələyə münasibət bildirən millət vəkili Aydın Hüseynovun sözlərinə görə, o Azərbaycanda islam bankçılığının inkişaf perspektivinə nikbin yanaşır: "Məsələ ondadır ki, Azərbaycanda İslam İnkişaf Bankı ilə birgə layihənin həyata keçirilməsi nəzərdə tutulub. Hesab edirəm ki, bu sahədə narahatlığa elə bir əsas yoxdur. Ona görə ki, yaxın bir müddətdə artıq Azərbaycanda da islam bankçılığının təməlləri qoyulacaq. Hesab edirəm ki, biz müəyyən maliyyə qurumlarının potensialından istifadə etməliyik. O cümlədən, bu sahədə İslam İnkişaf Bankı ilə əməkdaşlıq genişləndirilməlidir. Bu günlərdə KOB-la müəyyən müzakirələr aparılıb. Bu baxımdan düşünürəm ki, islam bankçılığının inkişafına üstünlük verməliyik. Məsələ ondadır ki, kiçik və orta sahibkarlıq sahəsində fəaliyyət göstərən iş adamlarının islam bankçılığının imkanlarından istifadə etməsi, ölkədə biznesin inkişafına öz töhfəsini verəcək. Bunun sayəsində sahibkarlar daha sərfəli şərtlərlə kredit əldə edəcək və bunu iqtisadi inkişafa yönəldəcək".

***Aydın Hüseynov:** "Ona görə ki, yaxın bir müddətdə artıq Azərbaycanda da islam bankçılığının təməlləri qoyulacaq"*

***Vidadi ORDAHALLI***

Bu gün dünyanın bütün ölkələrində intihar hadisələri baş verir. Hətta ən çox inkişaf etdiyi bildirilən dövlətlərdə, xüsusən də Avropada, ABŞ-da intihar hallarına daha çox rast gəlinir. Ümumiyyətlə, "insan niyə intihar edir" sualı əsrlərdir mütəxəssisləri ciddi şəkildə düşündürür. İntiharın qarşısının alınması üçün müxtəlif tədbirlər həyata keçirilsə də, bu da intihara hazırlaşan insanı niyyətindən döndərə bilmir.

# Azərbaycanda intiharları siyasiləşdirmək istəyənlərin niyyəti bəllidir

*"Azərbaycanda baş verən intiharların səbəbi siyasi motivlərlə bağlı deyil"*



Bizim ölkədə də intihar hadisələri baş verir. Çox təəssüf ki, insanlar çıxış yolunu intiharda görür. İntiharların səbəblərinin müxtəlif olduğu məlumdur. Sırf psixoloji məsələ olan bu halın heç bir siyasi səbəbi olmadığı da məlumdur. Çox təəssüflər olsun ki, bəzi qara qüvvələr, Azərbaycanı istəməyənlər müxtəlif vasitələrlə ölkəmizdə baş verən intihar hallarına siyasi don geydirməyə cəhd göstərir.

Mütəxəssislərin bildirdiyinə görə, biz əhalinin hər 1000 nəfərinə düşən intihar sayına görə Avropa və MDB üzrə az qala iki-üç dəfə yaxşı vəziyyətdəyik. Yəni həmin ölkələrlə müqayisədə Azərbaycanda intiharlar kütləvi xarakter daşımır.

Psixoloq Könül Vaqifqızı baki-xeber.com-a bildirdi ki, bəzi xarici qüvvələrin təsirinə uyaraq Azərbaycanda baş verən intiharların sayını qəsdən şişirdənlər və buna siyasi don geydirmək istəyənlər cəmiyyətdə çaşqınlıq yaratmaq, ölkəmiz haqqında mənfi rəy formalaşdırmaq istəyən qüvvələrdir. K.Vaqifqızının sözlərinə görə, Azərbaycanda indiyə qədər hansısa bir siyasi motivə görə intihar edən şəxs olmayıb. Yəni Azərbaycanda baş verən intihar hadisələrinin siyasiləşdirilməsinin əsassız olduğunu deyən psixoloqun qənaətinə görə, bütün dünyada intiharın əsas səbəbi kimi psixoloji amil göstərilir. Bu gün Azərbaycan vətəndaşları arasında heç bir qeyri-bərabərliyin, ayrı-seçkiliyin olmadığını deyən K.Vaqifqızının bildirdiyinə görə, bir neçə il əvvəl də sosial şəbəkələrdə ölkəmizdə baş verən intiharların siyasi səbəblərlə bağlı olduğunu iddia edən, bununla da ölkəmizə qarşı çirkin kampaniya aparanlar olub. O, qeyd etdi ki, həmin dövrdə Daxili İşlər Nazirliyinin məlumatına əsasən intihar edənlərin statistikası mətbuatda yer aldı. Ekspertin sözlərinə görə, nazirlikdən intihar edənlərin əksəriyyəti ruhi xəstələr, xroniki alkoqolizm, narkomaniya və digər ağır xəstəliklərdən əziyyət çəkənlər olduğu açıqlanıb.

"Çox təəssüf edirəm ki, Azərbaycanda baş verən ən kiçik hadisələrə belə siyasi məna, çalar verən qüvvələr sosial şəbəkələrdə bu gün də çox aktivləşiblər. Birmənalı olaraq demək istəyirəm ki, Azərbaycanda baş verən intiharların səbəbi siyasi motivlərlə bağlı deyil. İntihar hadisələrini siyasiləşdirmək istəyənlər anti-Azərbaycan mövqedə dayanan insanlardır. Belə yanlış məlumatları yayan insanlar Azərbaycanın inkişafını istəməyən qüvvələr və onların əlaltılarıdır. Mənə elə gəlir ki, sosial şəbəkələrdə intihar mövzusunu məqsədli şəkildə gündəmə gətirib cəmiyyətdə xof yaratmaq istəyirlər. Lakin onlar buna nail ola bilməyəcəklər. Çünki Azərbaycan insanı yaxşı bilir ki, onun hüquq və azadlıqlarını qoruyan, sosial rifahını düşünən dövləti var. Azərbaycanda baş verən intihar hadisələrini siyasiləşdirməyə cəhd göstərənlərin məqsədi dövlətimiz haqqında beynəlxalq aləmdə mənfi rəy yaratmaqdır. Müqayisə üçün deyim ki, bu gün Ermənistanda intihar edənlər daha çoxdur və onların arasında qadınlar, uşaqlar, məmurlar da az deyil. Lakin bunu gündəmə gətirən yoxdur. Avropa ölkələri, eləcə də ABŞ, Rusiya və digər dövlətlərlə müqayisədə Azərbaycanda baş verən intiharların sayı çox azdır. Baş verən beş-altı hadisəni "kütləvi intihar hadisəsi" kimi təqdim etmək olmaz. Bu məsələni siyasiləşdirənlər bizi istəməyən qara qüvvələr olduğu heç kəsdə şübhə doğurmur" - deyə K.Vaqifqızı bildirdi.

Yeri gəlmişkən, Azərbaycanın baş psixiatrı, Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli də xarici KİV-ə açıqlamasında son vaxtlar baş verən intihar hallarının siyasiləşdirilməsinin qəti əleyhinə olduğunu bildirib. O, qeyd edib ki, bu məsələdə hər hansı bir siyasi motiv axtarmaq olmaz.

***Könül Vaqifqızı:** "İntihar hadisələrini siyasiləşdirmək istəyənlər anti-Azərbaycan mövqedə dayanan insanlardır"*

***İradə SARIYEVA***

# Bakıda iki məktəbin bütün məzunları universitetə qəbul olundu

**İlham İsmayılov:** *"Məktəbimizin tarixində ilk dəfədir belə bir hadisə baş verdi"*

**13 nömrəli məktəbdən:** *"Məktəbimiz məzunlarımızın bu uğurları ilə yalnız fəxr edir"*

**Azərbaycan orta ümumtəhsil məktəblərinin məzunlarının qəbul imtahanlarında göstərdikləri uğurlu nəticələrin sayı ilbəil artır. Artıq bu sahədə nümunəvi məktəblər formalaşmaqdadır. Bəzən deyirlər ki, Azərbaycanın orta ümumtəhsil məktəblərində dərslər keyfiyyətli keçilmir. Lakin son nəticələr deyilənlərin həqiqət olmadığını sübut edir.**

Rəsmi məlumata görə, Bakıda iki orta məktəbin 11 a və 11 b siniflərini bitirmiş bütün məzunlar ali məktəbə qəbul olunub. Bakı şəhəri üzrə Təhsil İdarəsinin yaydığı məlumata görə, Yasamal rayonu 13 nömrəli tam orta məktəbin 11 a sinfini bitirən 22 məzunun hamısı 2018-2019-cu dərs ilində ali məktəblərə keçirilən qəbul imtahanlarında uğurla iştirak edərək tələbə adını qazanıb. Məzunlardan 8 nəfəri 500-dən yuxarı, 2 nəfəri isə 600-dən yuxarı bal toplayıb.

Binəqədi rayonunun 314 nömrəli tam orta məktəbinin humanitar təmayüllü 11 b sinfini bitirən 22 məzun da ali məktəblərə keçirilən qəbul imtahanlarında yaxşı nəticə göstərərək tələbə adını qazanıb. Məzunlardan 21-i III qrup üzrə, 1-i isə V qrup üzrə qəbul imtahanlarında uğur qazanıb. Onlardan 2 nəfəri 500-dən yuxarı, 20 nəfəri isə 200-500 balarası nəticə göstərib.

Adları çəkilən orta məktəblərin məzunlarının qazandıqları bu uğurun səbəbi nədir?

Binəqədi rayonu Biləcəri qəsəbəsində yerləşən 314 nömrəli tam orta məktəbin dərs hissə müdiri İlham İsmayılov "Bakı-Xəbər"ə bildirdi ki, məzunların qazandıqları bu uğur məktəbin özü və bütün kollektivi üçün, sözün həqiqi mənasında, sürpriz olub. İ.İsmayılov qeyd etdi ki, 11 b sinfinin bütün məzunları məktəbə böyük sevinc yaşadıb. "Məktəbimizin tarixində ilk dəfədir belə bir hadisə baş verdi. Bir sinfin bütün məzunlarının ali məktəbə daxil olması məktəbimizin kollektivi üçün böyük sürprizdir. Əlbəttə, burada müəllimlərimizin böyük zəhməti olmaqla məzunların da çalışqanlığı, biliyi böyük rol oynayıb. Sözün açığı, biz bu nəticəni gözləmirdik ki, bir sinfin bütün məzunları qəbul oluna bilər. Biz o məzunlarımızla fəxr edirik. Məzunlarımızın qəbul imtahanlarında göstərdikləri böyük nəticə məktəbimizin nüfuzunu daha da yüksəltdi" - deyə İ.İsmayılov vurğuladı.

Qeyd edək ki, Biləcəri qəsəbəsində yerləşir 314 saylı məktəb 2007/ 2008-ci dərs ilindən fəaliyyət göstərir. Cari dərs ilində məktəbdə 1918 şagird təhsil alır ki, onlar 76 sinifdə komplektləşib. I-IV siniflər 31, V-IX siniflər 34, X-XI siniflər 7 , 4 məktəbəhazırlıq qrupu və 1 günü uzadılmış qrup fəaliyyət göstərir. Təlim Azərbaycan dilindədir. Məktəbdə 106 pedaqoji, 25 texniki işçi fəaliyyət göstərir. Məktəb binası 800 yerlikdir və 3 korpusdan ibarətdir. Məktəbdə 1 fizika, 1 kimya, 1 biologiya, 2 informatika, 1 əmək hazırlığı və 1 hərbi kabinet, 1 kitabxana fəaliyyət göstərir. Kitabxananın ümumi kitab fondu 28583 ədəddir. 1 bufet, 1 akt zalı, 1 idman zalı var. 314 saylı tam orta məktəbdə təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində aparılan məqsədyönlü işlərdən biri də fənlərin tədrisi vəziyyətinin müasir tələblərə cavab verən inteqrativ, İKT əsaslı təlim metodlarına uzlaşdırılmasından ibarətdir. Məktəbin bir çox müəllimləri yuxarıda qeyd olunanları həyata keçirmək üçün Təhsil Nazirliyi, bir çox beynəlxalq və yerli təşkilat tərəfindən təşkil olunmuş treninq və kursların iştirakçıları olmuş və müxtəlif innovativ layihələrlə bağlı sertifikatlara layiq görülmüşlər. 314 saylı orta məktəb şagirdlərin şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayan sinifdənxaric və məktəbdənkənar tədbirlərin keçirilməsinə də geniş yer verir. Məktəb şagirdlərinin respublika olimpiadasında və inşa yazı müsabiqələrinin şəhər turunda iştirak edərək yer tutmalarını göstərmək olar. Hər il məktəbin şagirdlərindən 600-dən yüksək bal toplayanlar olur. Müəllimlər arasında müsabiqə və layihələrdə iştirak edənlər var. Məktəb fiziki cəhətdən sağlamlıq imkanları məhdud uşaqlar üçün Binəqədi rayonunda evdə təhsilin təşkili üzrə mərkəz məktəbdir. Məktəb təhsil sahəsində yeniliklərin reallaşması istiqamətində durmadan çalışır və bu sahədə işini davam etdirir.



*"Məzunlarımızın qəbul imtahanlarında göstərdikləri böyük nəticə məktəbimizin nüfuzunu daha da yüksəltdi"*

Yasamal rayonunda fəaliyyət göstərən 13 nömrəli tam orta məktəbdən də bildirdilər ki, məzunların nəticələri onları ürəkdən sevindirir. 11 a sinfini bitirən 22 nəfər məzunun hamısının ali məktəbə daxil olmasının məktəbin böyük uğuru olduğunu deyən məktəb əməkdaşları hesab edirlər ki, məzunlar bu uğura müəllimlərin zəhməti ilə nail olublar. "Məktəbimiz məzunlarımızın bu uğurları ilə yalnız fəxr edir" - deyə məktəbdən bildirdilər.

**Qeyd edək ki, 13 saylı məktəb 1965-ci ildən Bakı şəhərinin Yasamal rayonunda fəaliyyət göstərir. Məktəbin güclü pedaqoji kadr potensialı var. Məktəbdə 1205 şagird təhsil alır ki, onların təlim-tərbiyəsi ilə 100-ə yaxın müəllim məşğul olur. Hazırda məktəb rus dili fənni üzrə pilot məktəbi kimi fəaliyyət göstərir. 1982-ci ildə məktəbə Şərq klassik ədəbiyyatını mükəmməl mənimsəmiş görkəmli pedaqoq Şəfiqə Əfəndizadənin adı verilib.**

***İradə SARIYEVA***

# Azərbaycanlı qızları açıq fahişəliyə çağıran sosial şəbəkə istifadəçilərinin sayı çoxalır

***Fatimə Hacıbəyli:*** *"Qadınları fahişəliyə cəlb edənlər xanımlarla çox yüksək səviyyədə psixoloji söhbətlər aparmaq qabiliyyətinə malik hazırlıqlı adamlardır"*

**Sosial şəbəkələr cəmiyyətimizin ən çox istifadə etdiyi bir platformadır. Bu gün vəzifəsindən, tutduğu mövqedən asılı olmayaraq, çox insan müxtəlif sosial şəbəkələrdən istifadə edir. Təbii ki, bu platformadan hər kəs öz əxlaqına, məqsədinə uyğun yararlanır. Sosial şəbəkələrdə müsbət təmayüllərlə, pozitiv göstəricilərlə yanaşı, kifayət qədər neqativ amillər də var ki, bu da normal düşüncəli insanları ciddi şəkildə narahat edir.**

Sosial şəbəkələrdə dini ekstremizmdən, milli-irqi ayrıseçkilikdən tutmuş, fahişəliyin təbliğinə qədər neqativ əməllər sərgiləyənlər kifayət qədərdir.

Son zamanlar həm "Facebook", həm də "İnstagram" kimi sosial platformalarda bəzən açıq, bəzən də feyk profillərdən Azərbaycan qızlarını fahişəliyə cəlb etmək niyyətində olanlara, bununla bağlı müxtəlif çağırışlar edənlərə çox rast gəlinir. Kifayət qədər profillər var ki, burada həm qadınlar, həm də translar, cinsi oriyentasiyasında problemi olanlar öz bədənlərini, intim xidmətlərini təklif edirlər. Xüsusən də translar bu istiqamətdə aktiv fəaliyyət göstərirlər. Müxtəlif açıq-saçıq pozalarda fotolar çəkdirərək yayırlar. Özü də bu şəxslər həm adlarını, həm telefon nömrələrini, həm də ev ünvanlarını açıq şəkildə yayımlamaqdan çəkinmirlər.

Məlum olduğu kimi, onlayn intim xidmət göstərənlərin və qadınları intim xidmətə cəlb edən insanların əksəri qadın adlarından istifadə edir. Çox təəssüf ki, bu hala qarşı heç bir tədbir görülmür. Yerli QHT-lər, eləcə də başqa qurumlar sosial şəbəkələri başına götürən bu mənfi tendensiyanın ifşa olunması istiqamətində etiraz səsini qaldırmırlar. Əslində, cəmiyyətə, xüsusən də gənc qızlara, qadınlara yönələn bu mənfi təbliğatın qarşısının alınması üçün tədbirlərin görülməsi vacibdir. Əvvəllər bu kimi profillər daha çox "Facebook"da aktiv idisə, indi "İnstagram"ın daha kütləvi istifadəçiləri olduğu üçün, qadınları, qızları fahişəliyə cəlb edən və özü də fahişəlik xidməti göstərənlər bu platformada daha aktiv fəaliyyətə keçiblər.




*"Onlar nəinki qızları, hətta oğlanları da öz çirkin fəaliyyətlərinə cəlb etməyə cəhd göstərirlər"*

Onu da deyək ki, bu profillərdən qızlara, qadınlara dostluq təklifi göndərilir, sonra isə onlarla "isti söhbət"lər aparılır. Çox təəssüf ki, bəziləri həmin insanların toruna düşürlər. Doğrudur, o insanların niyyətini anlayıb onları rədd edənlər də çoxdur, amma itkilərimiz də az deyil.

"Vəfa" Sosial İctimai Birliyinin sədri Fatimə Hacıbəyli bizimlə söhbətində bu cür profillərin fəaliyyətini kəskin qınadığını bildirdi. Onun sözlərinə görə, bir çox insan sosial şəbəkələrdən azad istifadə edildiyindən sui-istifadə edərək belə neqativ işlərlə məşğul olur. "Çox təəssüf ki, bu gün sosial şəbəkələrdə, internet resurslarında bu cür xoşagəlməz, mənfi fəaliyyətlə məşğul olanların sayı həddindən artıq çoxdur. Əvvəllər beləleri daha çox "Odnoklassnik" sosial şəbəkəsində aktiv idilər. Çünki həmin sosial şəbəkə bir vaxtlar daha populyar və istifadəçiləri çox idi. Sonra "Facebook" və "İnstagram" daha aktiv platformalar kimi özünü göstərdikdən sonra həmin qüvvəllər bura keçdilər. Sosial şəbəkə üzərindən qadınları, qızları fahişəliyə cəlb edənlərin əksəriyyəti translardır. Onlar qadın adları altında feyk profillər yaradaraq özlərini ginekoloq, psixoloq kimi təqdim edirlər. Bu adamlar bir az gözəgəlimli, cəlbedici olan qızlara və qadınlara mesajlar yazıb onları söhbətə çəkirlər. Özü də qadınları fahişəliyə cəlb edənlər xanımlarla çox yüksək səviyyədə psixoloji söhbətlər aparmaq qabiliyyətinə malik hazırlıqlı adamlardır. Bəzən onların bu söhbətləri "faydasız" olmur, onlar bəzi xanımları öz toruna sala bilirlər. Qadınlarla bir az yazışıb onların vəziyyətini, ailə münasibətini, həyata baxışını öyrənirlər, sonra neqativ bir məsələ tapıb qadınları şantaj edirlər. Bu gün bu işdə translar daha aktivdirlər. Hətta onlar qız adları ilə oğlanlara mesaj yazıb intim əlaqə təklif edirlər, bir az yazışdıqdan sonra trans olduqlarını deyirlər. Onlar nəinki qızları, hətta oğlanları da öz çirkin fəaliyyətlərinə cəlb etməyə cəhd göstərirlər. Translar var ki, özlərini, göstərdikləri intim xidmətlərin bütün növlərini sosial şəbəkələrdə paylaşırlar. Hesab edirəm ki, bu neqativ halın qarşısının alınması üçün tədbirlər görülməlidir. Əks təqdirdə onların bu əməlləri xərçəng kimi daha geniş yayılacaq və daha çox insanı bədbəxt edəcək" - deyə F.Hacıbəyli qeyd etdi.

O bildirdi ki, artıq Türkiyədə və başqa ölkələrdə sosial şəbəkələr üzərindən qadınları, qızları fahişəliyə cəlb edən insanlar barədə hüquq müstəvisində tədbir görülür. Sosial şəbəkələrdə belə insanların əməllərindən zərər çəkənlər aidiyyəti qurumlara müraciət etməlidirlər. "Bilirsiniz, belə hallarla üzləşənlər aidiyyəti qurumlara müraciət etsələr, onların şikayətləri əsasında elə insanlara qarşı tədbir görmək mümkündür. Ümumiyyətlə, xanımlar tanımadıqları adamların mesajlarını blok etsinlər. Bu daha yaxşıdır" - deyə o bildirdi.

***Leyla QARAXANLI***

№ 145 (4043) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

21 AVQUST 2019-cu il

www.baki-xeber.com

# Malayziyada yumurtadan nadir ikibaşlı tısbağa çıxıb

**Təbiəti mühafizə idarəsinin mütəxəssisləri Malayziyanın Mabul adasında nadir ikibaşlı tısbağa balası aşkar ediblər.**

"Seanews.az" bildirir ki, bu barədə "The Coconuts" saytı məlumat yayıb. İkibaşlı erkək tısbağa yumurtadan yeni çıxan 93 bala arasında



olub. Təbiəti mühafizə təşkilatının əməkdaşları bildiriblər ki, indiyədək 13 mindən çox tısbağa balasının dünyaya gəlməsini müşahidə etsələr də, belə halla ilk dəfə rastlaşıblar. Dəniz bioloqu Devid Makkan bildirib ki, bala tısbağanın başları ayrı-ayrılıqda nəfəs alır və bədənin idarə edilməsini öz aralarında bölüşüblər. Belə ki, sağda yerləşən baş-bədənin sağ, solda yerləşən baş isə digər tərəfini idarə edir. Bu, tısbağanın həm quruda, həm də suda hərəkət etməsinə manеə yaratmır.

## Elan

Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal yaşayış massivi, Talıblı küçəsində yerləşən "Arabaçı" kiçik müəssisəsinin direktoru S.M.Məmmədov tərəfindən Göyçay şəhəri, R.İsayev küçəsi, ev 91 ünvanında yaşayan Kərimova Dilarə Əliağa qızına verilmiş yaşayış binasında mənzil tikintisi haqqında müqavilənin və maliyyə arayışının (Binanın V giriş, XII mərtəbəsində 2 otaqlı 354 saylı mənzil ) əsli itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Böyük Dəhnə kənd sakini İsmayılov Zahir Abuzər oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 371 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Mirzəyeva Fəridə Soltan qızının adına, Bakı şəhəri, Xətai rayonu, S.Ə.Şirvani küçəsi, ev №1, mənzil №130 ünvanının HDQHDƏDR-dən çıxarışı itdiyi üçün etibarsız sayılır.

Hadıyeva İradə Kamil qızına (01 iyun 2015-ci il tarixli, Az-I 758240 3 saylı "ASAN xidmət" tərəfindən verilmiş ölüm haqqında şəhadətnamə) məxsus, Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, 3950 "a" saylı sahədə yerləşən torpaq sahəsinin çıxarışı itdiyi üçün etibarsız sayılır.

Rüstəmbəyova Maya Qadir qızının adına, Bakı şəhəri, Xətai rayonu, X.Məmmədov küçəsi, 2942 saylı məhəllə, 123 saylı mənzilin 387 nömrəli müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Rzayev Fərmayıl Məmmədrza oğluna Cəbrayıl RHK tərəfindən 25.07.2007-ci il tarixində verilmiş M/V № 075170 müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsində yerləşən torpağın sahibi Rəcəbova Firəngiz Ağabəy qızının adına məxsus, JN 7572 "D" kod 00500046 (0.06 ha) torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

İmanova Sənubər İslam qızının adına, Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəsəbəsi, D.Dadaşov küçəsi, ev 34 ünvanının qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hüseynova Arzu Aydın qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Xəlilova Gülşən Çingizovnanın adına, Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Sülh küçəsi, ev №8, mənzil 5 ünvanının HDQHDƏDR-dən çıxarışı itdiyi üçün etibarsız sayılır.

İbadov İman Ömər oğlunun adına, Bakı şəhəri, M.Hadi küçəsi, ev 113, mənzil 21 ünvanının qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Rzayeva Məleykə Xəlil qızının adına, Bakı şəhəri, Abşeron rayonu, Xırdalan şəhəri, V.Xəlilov küçəsi, dalan 6, ev 26 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

# Tarixdə ilk dəfə düşüncələr maşın tərəfindən sözlərə çevrildi

**Son vaxtlarda maşın interfeysində olduqca əhəmiyyətli addımlar reallaşdırıldı. Bu addımlardan biri olaraq "Facebook" dəstəkli yeni ixtira yarandı. Düşüncələr, tarixdə ilk dəfə bir göz qırpımında maşın tərəfindən sözlərə çevrilib.**



"Deyerler.org" bildirir ki, maşınlar ilə insanlar arasındakı qarşılıqlı təsir də getdikcə artır. Birbaşa beyin dalğalarını istifadə edərək oyunlar oynamaq və mesaj çatdırmaq günümüzdəki texnologiya ilə mümkündür. "Facebook" tərəfindən də dəstəklənilən yeni bir araşdırma sayəsində, bir insanın düşüncələri anında yazıya çevrilə bilir. Kaliforniyanın San-Fransisko Universitetində (UCSF) reallaşdırılan ilkin təqdimatda, sistemin müvəffəqiyyətlə işlədiyi müşahidə edildi. "Facebook" bu xüsusiyyətin yaradılmasını, insanların düşüncələriylə yazı yaza bilməsi üçün, universitetin araşdırmaçıları isə, beləliklə, əlillərin yenidən yaza bilməsini və danışa bilməsini təmin etməyi məqsəd güdür. Sağlam insanlar üçün düşüncələrini anında sözlərə çevirmək üçün bir çətinlik yoxdur. Ancaq iflic, enmə, onurğa şikəstliyi, ya da beyin xəstəliyi keçirmiş, danışma qabiliyyəti zərər görmüş insanlar üçün düşüncələrini yazılı şəkildə bildirmək ciddi bir problemdir.





**Qoç** - Cari problemləri tərəfdaşlarla müzakirə edərək, işin ağırlığını onlarla bölüşə bilərsiniz. İndiyədək gündəmə gətirilməyən və söylənməyən suallar səslənəcək. Maddi və fiziki resurslarınızı tükətməyin.



**Buğa** - Günün ilk yarısı fəaliyyət sahəsini seçməyə imkan verir. İşgüzar prosesə kənardan müdaxilələrə imkan verməyin. İşlərinizə qarışmaq istəyən insan sizə ziyan vuracaq. Günün ikinci yarısında diqqətli olun.



**Əkizlər** - Günün ilk yarısında həyatınızda köklü dəyişikliklər olmayacaq. Situasiyanın inkişaf perspektivlərini dəqiqləşdirin və yalnız bundan sonra qərar qəbul edin. Diqqətli olun, kobud səhvlərə yol verməyin.



**Xərçəng** - Uğurlu zamandır. Azad fəaliyyət qrafikini seçibsinizsə, məqsədə doğru inamla irəliləyin. Hədəfləri dəyərləndirin və təhlil edin. Tənbəllik etməyin, süstlüyə qapılmayın. Axşam saatlarını yarımçıq işlərin başa çatdırılmasına həsr edin.



**Şir** - Daxili gərginlik sizi bir işi yarımçıq qoyaraq başqa işə başlamağa vadar edəcək. Qayda yaratmağa başlamaq istəyirsinizsə, başlanan işi mütləq başa çatdırın. Bütün diqqəti aktual mövzuya yönəldin.



**Qız** - Ənənəvi fəaliyyət müstəvisindən bir qədər kənara çıxmaq, yeni təəssüratlar əldə etmək olar. Mürəkkəb prosesdə çaşqın qalmayın. İradəli, qətiyyətli olun. Uğurun sirri təmkinlə yanaşı, zəhmətkeş olmaqdadır.



**Tərəzi** - Ünsiyyətdə aktiv olun. Təkliyə can atmayın, tənhalığa qapılmayın. Sakit və aramla çalışmaq hamıdan kənar qalmaq deyil. Qarşınıza qoyduğunuz məqsədə çatmaq üçün zəruri saydığınız bütün vasitələrdən istifadə edin.



**Əqrəb** - Maraqlı işlər zamanıdır. Qarşınıza çıxan müşküllərin çözülməsində qeyri-ordinar vasitələr və ya metodlardan yararlana bilərsiniz. İntuisiyanız güclü, hissləriniz kəskin olmalıdır.



**Oxatan** - Tələsik qərarlar verməyin, ilkin təəssüratlara aldanmayın. Maliyyə və əmlak məsələlərində diqqətli davranın. Mühüm saydığınız məsələnin həllinə başlamazdan əvvəl bütün detallardan hali olun.



**Oğlaq** - Günün ilk yarısı önəmli hadisələr vəd etmir. İşgüzar fəaliyyətinizdə yön dəyişdirməyə çalışmayın. Şəxsi həyatınızda bəzi hadisələr sizi təbdən çıxarmasın. Bəzi dolaşıq məişət və ya maliyyə məsələlərini həll etmək şansları yaranıb.



**Dolça** - Ənənəvi işlərlə məşğul olanda, diqqətli və ehtiyatlı davranın. Məişət işlərini qulaqardına vurmayın. Texnika ilə işləyəndə bəzi nüansları mütləq nəzərə almalısınız. Səliqəli olun, təfərrüatları görməməzliyə vurmayın.



**Balıqlar** - Günün ilk yarısından etibarən cari işlərin yerinə yetirilməsi ilə məşğul olun. Verdiyiniz vədləri yerinə yetirin. Mühüm danışıqlar, müzakirələr, görüşlərdə məntiqi davranın. Qarşı tərəfi anlamaq üçün müəyyən səylərin göstərilməsinə zərurət duyulur.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

# 4 robot növü tezliklə ailənin üzvünə çevriləcək

**Çinin "Huawei" şirkətinin proqnozuna görə, süni intellekt və "5G" rabitəsinin inkişafı sayəsində 6 il sonra insanların əksəriyyəti robotlarla birgə yaşayacaq. Hər 7 nəfərdən biri ev robotuna malik olacaq.**

"ICTnews" bildirir ki, "Huawei" şirkəti "Texnologiyaların gələcəyinə baxış" adlı hesabatını təqdim edib. Mühüm dəyişiklik odur ki, ev robotlarının sahibləri onları öz ailəsinin üzvü kimi qəbul edəcək. "Huawei" bu məqsədlə "geniş ailə" termininden istifadə edir. Çin şirkətinin proqnozuna görə, 2025-ci ilədək süni intellektdən istifadə edən 4 robot növü geniş yayılacaq: eşikağası, kompanyon, tibb bacısı və bionika (yeni bədənin ayrı-ayrı hissələrinin əvəzedicilə-ri). "Biz həyatda, işdə və cəmiyyətdə çox sürətli dəyişikliklərin baş verdiyini görürük, çünki, hər bir sahədə süni intellekt, "5G", bulud hesablamaları və başqa yeni texnologiyalar tətbiq edilir", - "Huawei"nin top-menecerlərindən biri Kevin Can deyib.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.